# 22 İYUL MİLLİ MƏTBUAT GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 142 (8458) ÇƏRŞƏNBƏ, 22 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



◆ Azərbaycan milli mətbuatı - 145



## Ölkəmizdə mətbuata dövlət qayğısı yüksək səviyyədədir

### İlham Əliyev jurnalistlərin ən yaxın dostudur

Xalqımızın tarix boyu yetirdiyi ən görkəmli maarifçilərdən olan Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə parlamış işıq düz 145 ildir ki, yolumuzu aydınladır.

Böyük ziyalının illər sonra qələmə aldığı məqalələrindən birində "Rusiyada əvvəlinci türk qəzetəsi" deyərək təqdim etdiyi "Əkinçi" bu illər ərzində ictimai fikir tariximizə çox qiymətli bəhrələr verib. Bu, XX əsrin əvvəllərində maarifçilik ideyalarının təcəssümü kimi yaranmış Azərbaycan Xalq Cümhuriyyəti və onun hüquqi varisi olan, hazırda tarixinin ən qüdrətli dövrünü yaşayan müstəqil Azərbaycan dövlətidir.

Azərbaycanın qazandığı nailiyyətlər, beynəlxalq aləmdə mövqelərinin getdikcə möhkəmlənməsi bu 145 illik tarixi yaratmış, öz həyat və fəaliyyətləri, Vətənin inkişafı naminə gördükləri fədakar işlərlə milli mətbuatımızı mənalandırmış maarifpərvərlərimizin gerçəkləşən arzularıdır.

#### Xalqa təmənnasız sevginin tarixi

Milli mətbuatımızın tarixi Azərbaycanın çox qiymətli bir parçasıdır. Bu, təkcə çox qısa müddət ərzində fəaliyyət göstərmiş, mənəvi ömrünü isə bu gün də davam etdirən bir qəzetin yaşı deyil. Vətənə sidq-ürəkdən sevginin tarixidir. Xalqın mədəni inkişafı, dövlətçilik şüurunun, vətəndaş məsuliyyətinin formalaşması üçün cidd-cəhdlə hər əzaba qatlaşmağın salnaməsidir.

Azərbaycan mətbuatı 145 ildə çox böyük tarixi yol keçib. Bu gün cəmiyyətimizin mədəni inkişaf səviyyəsi, ölkəmizdə mövcud olan söz və ifadə azadlığı, kütləvi informasiya vasitələrinin bolluğu, təxminən əsr yarıma bərabər müddətin həyatımıza gətirdiyi nailiyyətlərdir. Onların hər birində "Əkinçi"nin işığı görünür. Həsən bəy Zərdabinin, Mirzə Cəlilin, Ə.Ağaoğlunun, Üzeyir bəy Hacıbəylinin, Ceyhun bəyin, Şəfi bəy Rüstəmbəylinin, Xəlil İbrahimin və digər mütəfəkkirlərimizin ruhları duyulur. Çünki bütün nailiyyətlər də tarixin müasir çağında xalqa xidməti, ölkənin inkişafına nail olmağı özünə şərəf bilən belə şəxsiyyətlərimiz hesabına qazanılıb və qazanılır.

Ömrünü Azərbaycanın müstəqilliyinə, inkişafına həsr etmiş Ümummilli Lider Heydər Əliyevlə, böyük rəhbərin dövlətçilik irsini bu gün əzmlə davam etdirən Prezident İlham Əliyevlə, bütün dünyada sülhün, multikulturalizm ideyalarının, xeyirxahlıq, mərhəmət, sevgi kimi ali dəyərlərin yayılmasına töhfələr verən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə Həsən bəy Zərdabi kimi maarifçilərimizin missiyası arasında qırılmaz bir bağlılıq var.

Ardı 4-cü səh.



## İnsanların rifahı və ölkəmizin güclənməsi Prezidentin daim diqqət mərkəzindədir

### İlham ƏLİYEV: "Dövlət büdcəsinin böyük hissəsi sosial məsələlərin həllinə xərclənir"

İyulun 21-də Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdimat mərasimində iştirak ediblər.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlət başçısına və birinci xanıma məlumat verdi ki, dövlət tərəfindən bu binada şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 62 mənzil verilib. Bu mənzillərin 42-si Qarabağ müharibəsi əlilləri, 20-si isə şəhid ailələri üçün nəzərdə tutulub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış oldular.



Mənzillərin hamısı ikiotaqlıdır. Bu mənzillər də daxil olmaqla indiyədək şəhid ailələrinə və müharibə əlillərinə 8018 mənzil və fərdi ev təqdim olunub. Bu qəbildən olan vətəndaşlarımız təkcə 2019-cu ildə 634 mənzil, 300 fərdi evlə təmin ediliblər. 2020-ci ildə 700 mənzil və 800 fərdi evin verilməsi nəzərdə tutulub. İlin əvvəlindən indiyədək 430 mənzil təqdim olunub.

Diqqətə çatdırılıb ki, 2018-ci ildə 265, 2019-cu ildə 600 müharibə əlili avtomobillə təmin olunub. Bu dəfə təqdim edilən 50 avtomobil də daxil olmaqla 2020-ci ildə bu qəbildən olan insanlara, ümumilikdə, 150 avtomobil verilib. İlin sonunadək isə 400 müharibə əlilinin avtomobillə təmin olunması planlaşdırılır. Onu da deyək ki, təqdim olunan avtomobillər yerli istehsal olan "Khazar LX" avtomobilləridir.

Bu dəfə verilən 50 avtomobil də daxil olmaqla indiyədək müharibə əlillərinə 6900 avtomobil təqdim olunub.

Dövlət başçısına və birinci xanıma sosial təminat və birdəfəlik ödəmə, 2020-ci ildə məşğulluq tədbirləri, Dövlət Sosial Müdafiə Fondunun fəaliyyəti, sosial xidmətlər və reabilitasiya, şəhid ailələrinə və müharibə əlillərinə qayğı, DOST mərkəzlərinin fəaliyyəti, elektronlaşma və innovativ həllər, pandemiya ilə əlaqədar olaraq məşğulluğa və sosial rifaha dəstək tədbirləri barədə məlumat verildi. Ümumilikdə, Azərbaycanda xüsusi kateqoriyadan olan şəxslər üçün güzəşt və imtiyazların ildən-ilə daha da çoxalması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Şəhid ailələrinə və müharibə əlillərinə müavinət və təqaüdlər 2019-cu ilin aprelində təxminən 100 faiz artıb.

Bu ilin ilk 6 ayında müharibə əlillərinə 1435 reabilitasiya vasitəsi verilib. Hazırda bir çox şəhər və rayonda bərpa və uşaq bərpa mərkəzlərinin inşası və təmiri davam edir. İlin birinci yarısında 1, 2 və 3 saylı DOST mərkəzlərinə 61057 vətəndaş müraciət edib. Vətəndaş məmnunluğu isə 96 faizdir. Tezliklə Binəqədi, Abşeron, Sumqayıt, Quba və Bərdədə DOST mərkəzlərinin açılması nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşdülər.

Dövlət başçısı görüşdə çıxış etdi.

Bax: səh. 2

## Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı il 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı il 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin tibbi göstərişlər üzrə avtomobillə təminatının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 2 878 020 (iki milyon səkkiz yüz yetmiş səkkiz min iyirmi) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 21 iyul 2020-ci il*

## Düşmənə qarşı ən güclü silahımız milli birliyimizdir

### Birinci vitse-prezident Mehriban Əliyeva sosial şəbəkə istifadəçilərini sayıq olmağa, istənilən informasiya təxribatına layiqli cavab verməyə çağırdı

İşğalçı Ermənistan iyulun 12-15-də dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatlarla bir daha təcavüzkar dövlət olduğunu təsdiq etdi. Bu təxribatın qarşısını alan zaman 12 hərbçimiz və Tovuz rayonunun Ağdam kəndinin dinc sakini şəhid oldu. Azərbaycan Ordusu hər zamankı kimi düşmənə layiqli cavab verərək bir daha hərbi üstünlüyünü nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə təcavüzkarın hərbi təxribatı nəticəsində həlak olan şəhidlərimizin qanı yerdə qalmadı, onların qisası ən yüksək səviyyədə alındı. Beynəlxalq ictimaiyyət isə ölkəmizin haqlı mövqeyini müdafiə etməklə Ermənistanın bu çirkin əməlini qətiyyətlə pislədi.

#### Həmrəyliyin təcəssümü

Baş verən hərbi toqquşmanın təsdiq etdiyi reallıq Azərbaycan Ordusunun şəxsi heyətinin yüksək döyüş əzmində olması, generaldan əsgərədək hər bir hərbi qulluqçunun mübarizliyi, yüksək vətənpərvərliyidir. Elə buna görədir ki, qəhrəman vətən övladları torpaq uğrunda canlarını fəda etdilər, şəhidlik zirvəsinə ucaldılar.

Təvacüzkarın bu hücumunun qarşısını almaq üçün Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyat həm də, bütövlükdə, cəmiyyətimizdəki yüksək vətənpərvərlik ab-havasını nümayiş etdirdi. Bunu Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilmiş aksiyalar da təsdiqlədi. Aksiya iştirakçılarının vətənpərvərliyi, onların səfərbərlik elan olunmaq istəyi, ordu sıralarında qulluq etmək niyyəti qürur doğurdu. Könüllü olaraq cəbhə bölgəsinə gedib döyüşmək və lazımi kömək göstərmək istəyən vətəndaş tərəfindən dövlət orqanlarına 50 minə yaxın müraciətin olması bunun təsdiqidir. Eyni zamanda bütün bunlar bir daha göstərdi ki, bu gün düşmənə qarşı ən güclü silahımız milli birliyimiz və həmrəyliyimizdir. Keçirilən dəstək aksiyaları onu da sübut etdi ki, xalq birmənalı şəkildə Ali Baş Komandanın ətrafında sıx birləşib.

Ardı 6-cı səh.

## Karantin rejiminin uzadılmasının məqsədi müsbət dinamikanı qoruyub saxlamaqdır

### Sanitar-epidemioloji qaydalara riayət etməklə pandemiyanın güclənməsinin qarşısını ala bilərik

Yeni növ koronavirus - COVID-19 hələ də qlobal təhlükə olaraq qalmaqda və insanların sağlamlığını təhdid altında saxlamaqda davam edir. Bütün dünya aylardır ki, pandemiya ilə mübarizə aparır, iqtisadi tənəzzülün qarşısının alınması, böhranın daha da dərinləşməməsi üçün çoxsaylı tədbirlər həyata keçirir, insanların ölümcül COVID-19 virusunun qurbanına çevrilməmələri üçün sərt məhdudlaşdırıcı addımlar atır. Lakin müxtəlif sanitar-epidemioloji, profilaktik, məhdudlaşdırıcı tədbirlərə rəğmən, hələ də virusun yayılma sürətini azaltmaq, yoluxma hallarının qarşısını almaq mümkün deyil. Artıq planetimizdə virusa yoluxanların ümumi sayı 15 milyona, həyatını itirənlərin sayı isə 610 minə yaxınlaşır.

Bu dəhşətli bəladan qurtulmaq üçün bəşəriyyət peyvəndin hazırlanıb istifadəyə verilməsini səbirsizliklə gözləyir. Yeni növ koronavirusa qarşı geniş şəkildə istifadə edilə bilən peyvənd maddəsi isə gələn ilin ortalarında hazır ola bilər. Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) elmi araşdırmalar üzrə əsas səlahiyyətli nümayəndəsi Soumya Svaminatan deyib. O, hazırda 20 peyvənd maddəsinin insanlar üzərində kliniki tədqiqat mərhələsində olduğunu və bu maddələrdən ən azı bir neçəsinin kütləvi istifadə üçün yararlı olacağına ümid etdiyini bildirib.

ÜST rəsmisi qeyd edib ki, kliniki tədqiqatlar mərhələsində olan peyvənd maddələri ilə bağlı nəticələr gələn ilin əvvəlində hazır olacaq. Yekun seçimdən sonra peyvəndlərin kütləvi istehsalı başlana və ilin ortalarında geniş əsasda istifadəsinə start verilə bilər.

S.Svaminatan eyni zamanda yeni növ koronavirusa qarşı peyvəndin hazırlanmasını ÜST tarixində vaxt baxımından ən sürətli plan kimi də dəyərləndirib.

Ardı 7-ci səh.

# İnsanların rifahı və ölkəmizin güclənməsi Prezidentin daim diqqət mərkəzindədir

## Prezident İlham Əliyevin çıxışı

- Əziz dostlar, bu gün sizin həyatınızda çox əlamətdar bir gündür. Siz dövlət tərəfindən mənzillərlə təmin edilirsiniz. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Mən indi sizin yeni yaşayış yerinizlə tanış olmuşam. Çox gözəl təəssürat bağışlayır, müasir standartlara cavab verən ev tikilibdir, mənzillər də çox genişdir və tam təmirlidir. Yəni, sadəcə olaraq, mebeli gətirib yaşamaq mümkün olacaqdır. Bu, dövlətin sizə növbəti diqqətinin təzahürüdür.

Bilirsiniz ki, şəhid ailələrinin, müharibə əlillərinin problemləri daim diqqət mərkəzindədir və son illər ərzində bu istiqamətdə çox böyük işlər görülüb. Təkcə onu demək kifayətdir ki, 8 mindən çox şəhid ailəsi, müharibə əlili mənzillərlə təmin edilib və 7 minə yaxın avtomobil verilibdir. Hesab edirəm ki, biz bu il də bu sahədə rekord göstəriciyə nail olacağıq, buna şübhə yoxdur. Bu il 1500 şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilir və ediləcəkdir. Bütün mənzillər ən yüksək keyfiyyətlə tikilən yeni evlərdədir. Eyni zamanda sizin üçün 400 avtomobil də nəzərdə tutulur və beləliklə, biz bu il bu sahədə ən böyük göstəriciyə nail ola bilmişik.

Müqayisə üçün deyə bilərəm ki, keçən il 934 mənzil verilmişdir, bu il isə 1500, ondan əvvəlki illərdə təqribən ildə 500-600-700. Yəni bu onu göstərir ki, bu problemi həll etmək və şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən nəzərdə tutulmuş evlərin təqdim edilməsi üçün çox fəal iş aparılır. Mən istəyirəm ki, biz bu proqramı tezliklə başa çatdıraq və buna nail olacağıq. Sirr deyil ki, bu məqsədlər üçün böyük vəsait nəzərdə tutulur və bildiyiniz kimi, dövlət büdcəsinin böyük hissəsi sosial məsələlərin həllinə xərclənir. Bu sosial xərclərin içində şəhid ailələrini, müharibə əlillərini, müharibə veteranlarını, məcburi köçkünləri əhatə edən çox böyük proqramlar icra olunur.

Məcburi köçkünlərin məişət problemlərinin həllinə gəldikdə, bu il bu sahədə də rekord göstərici gözlənilir. Bu il 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək. Bu bir daha onu göstərir ki, biz bu məqsədlər üçün istənilən xərclərə gedirik, bunu təmin edirik və şadam ki, mənim çağırışımdan sonra özəl sektor da bu işlərə qoşulub. Bildiyiniz kimi, özəl şirkət - “Paşa Holdinq” tərəfindən onun vəsaiti hesabına Qobu qəsəbəsində məcburi köçkünlər üçün 3 şəhərcik inşa edilibdir və orada artıq 4 minə yaxın köçkün ailəsi məskunlaşıb. Eyni zamanda şəhid ailələri, müharibə əlilləri üçün evlərin tikilməsinin, əlbəttə ki, böyük hissəsini dövlət öz üzərinə götürübdür. Ancaq özəl sektor da artıq fəaldır və bu il “Kapital Bank” 68 mənzili öz vəsaiti hesabına bu kateqoriyadan olan insanlara təqdim edib. Bu həm ölkəmizdə mövcud olan vətəndaş həmrəyliyinin, dövlət siyasətinin təzahürüdür, dövlət və özəl sektor tərəfindən bu kateqoriyadan olan insanlara qayğının əlamətidir və eyni zamanda ölkəmizin gücünü göstərir. Çünki siyasət düz, niyyət xoş ola bilər, amma əgər bunu icra etmək üçün imkan yoxdursa, onda niyyət elə niyyət kimi qalacaq.

Biz son illər ərzində iqtisadi sahədə o qədər böyük potensial yaratmışıq ki, bu gün bu işləri görə bilirik. Əgər bu potensial olmasaydı, biz bu işləri nəyin hesabına görə bilərdik, kim bizə kömək göstərərdi? Təsadüfi deyil ki, müstəqilliyimizin ilk illərində bizim belə imkanlarımız yox idi və məhz buna görə köçkünlər çadırlarda yaşayırdı, şəhid ailələri üçün evlərin təqdim edilməsi, ümumiyyətlə, mümkün deyildi. Bununla paralel olaraq bizim güclü sosial siyasətimiz var. Çünki iqtisadi güc, ilk növbədə, ona görə lazımdır ki, ölkə daha da qüdrətli olsun, öz maraqlarını təmin etsin və insanlar daha da yaxşı yaşasınlar.

Bu gün mənə təqdim edilən məlumat onu göstərir ki, sosial sahədə çox böyük işlər görülür. Keçən il çox böyük işlər görülübdür və bildiyiniz kimi, şəhid ailələrinin müavinəti 20 faiz artırılıb - 250 manatdan 300 manata çatdırılıb. Köçkünlər üçün müavinətlər 50 faiz artırılıb, bəzi müavinətlər 100 faiz artırılıb. Keçən il insanların sosial problemlərinin həlli üçün bir neçə milyard manat vəsait xərclənib. Bu il pandemiya dövründə təqribən 5 milyona yaxın insan dövlət tərəfindən maddi dəstəklə əhatə olunub. Bütün bunlar üçün bizim resurslarımız, vəsaitimiz gedir. Bizim iqtisadi potensialımız olmasa, bunu necə təmin edə bilərik? Pandemiyadan əziyyət çəkən insanlara dövlət tərəfindən çox böyük dəstək göstərilir, yeni xəstəxanalar, modul tipli xəstəxanalar tikilir. Xəstələr dərmanlarla təchiz edilir. Biz bir neçə xarici ölkədən mütəxəssislər, həkimlər cəlb etmişik. Hər belə addım pul tələb edir. Biz bunu edirik, çünki bu bizim borcumuzdur. Ona görə edə bilirik ki, bizim imkanımız var. İmkanı da biz öz işimizlə, məqsədyönlü fəaliyyətimizlə yaradırıq. Həm xarici siyasətimiz, həm daxili siyasətimiz bir məqsədi güdməlidir ki, ölkə daha da qüdrətli olsun, insanlar daha da yaxşı yaşasınlar.

Pensiyaların artırılması - bu il pensiyalar orta hesabla 27 faiz, orta əməkhaqqı 25 faiz artıb. Bütün bunlar bizim siyasətimizi göstərir. Əlbəttə ki, sosial sahədə digər önəmli layihələr də icra edilir. Özünüməşğulluq proqramı - insanlara imkanlar yaradılır ki, onlar öz ailələrini dolandıra bilsinlər və dövlətin yardımından asılı olmasınlar. Bu il bu işlərə 12 min insan cəlb olunacaq, 90 min insan ödənişli ictimai iş yerləri ilə təmin ediləcək. Mən açıq deyirəm ki, ictimai iş yerləri o iş yerləridir ki, onlarsız da ölkə inkişaf edə bilər. Biz, sadəcə olaraq, insanlar üçün şərait yaradırıq ki, pul qazansınlar və heç olmasa, aztəminatlı təbəqə minimum əməkhaqqı səviyyəsində vəsait əldə etsin.

Beləliklə, bütün bu və digər sosial layihələr, DOST xidmətinin fəaliyyətə başlaması həm ideya, innovasiya, siyasət, eyni zamanda, vəsait tələb edir. Sirr deyil ki, bizim vəsaitimizin əsas hissəsi enerji sektorundan gəlir. Bu da Heydər Əliyev neft siyasətinin uğurlu icrası nəticəsində mümkün olubdur. Təsəvvür edin, əgər bizim neft-qaz kəmərlərimiz olmasaydı və xarici şirkətlər Azərbaycan neft-qaz sənayesinə milyardlarla dollar pul qoymasaydılar, biz indi nəyin hesabına yaşayacaqdıq? Bu səviyyədə yaşaya bilərdikmi? Əlbəttə ki, yox. Öz haqlı işimizi beynəlxalq arenada bu dərəcədə müdafiə edə bilərdikmi? Əlbəttə ki, yox. Ona görə Ulu Öndərin xalq qarşısında xidmətləri arasında bu sahə xüsusi yer tutur. Biz məhz bunun hesabına bu gün valyuta ehtiyatları yaratmışıq, iqtisadiyyatın digər sektorlarına, infrastruktura investisiya qoyuruq. Biznes, özəl sektor buna görə inkişaf edir. Hər kəs bunu bilməlidir ki, bu gün və bundan sonrakı illərdə qeyri-neft sektoru nə qədər inkişaf edirsə-etsin, bizim əsas gəlir mənbəyimiz enerji sektorudur - neft və bu gün qaz. Ona görə bu bizim üçün strateji əhəmiyyətli sahədir. Əlbəttə, mən çalışıram və bundan sonra da çalışacağam ki, bu sahə inkişaf etsin. Biz yeni neft kontraktlarının, yeni layihələrin işə düşməsi nəticəsində uzunmüddətli inkişafımızı təmin edəcəyik.






Ona görə neft hasilatı, qaz hasilatı, dünya bazarlarında neftin qiyməti bizim üçün xüsusi əhəmiyyət daşıyan bir məsələdir. Təkcə bizim üçün yox, neft, qaz hasil edən, ixrac edən bütün ölkələr üçün əhəmiyyətlidir. Çünki bu ölkələrin iqtisadiyyatı, artıq oturuşmuş iqtisadiyyatlar bunun üzərində qurulubdur. Ona görə neftin qiymətinin bir dollar aşağı düşməsi milyonlarla dollar itki deməkdir. Baxın, bu il neftin qiyməti bir neçə dəfə düşüb və bizim gəlirlərimiz buna uyğun olaraq azalıb, ancaq bir dənə də olsun sosial layihə ixtisar edilməyib. Əksinə, pandemiya dövründə maksimum nə mümkünsə etmişik, edirik və edəcəyik.

Bu çətin pandemiya dövründə dünyada böhran davam edir. Dünyanın 150 ölkəsi kredit üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Onu da bildirməliyəm ki, Azərbaycan bu siyahıda yoxdur, biz öz hesabımıza yaşayırıq. Neftin qiyməti kəskin aşağı düşür, buna baxmayaraq, biz bu işləri görürük. Budur siyasət. Bu, bizim şəhid ailələrinə, şəhidlərin ruhuna olan hörmətimizdir. Amma əfsuslar olsun, ölkə daxilində elələri tapılır ki, neftin qiymətinin düşməsinə sevinirlər. Buna kim sevinir? Mən demişəm, bir daha demək istəyirəm ki, qoy, Azərbaycan xalqı bunu bilsin və unutmasın. Birincisi, Ermənistan sevinir, çünki başa düşürlər ki, əgər bu tənəzzül davamlı olarsa, Azərbaycanın gəlirləri azalacaq, ona görə öz xərclərini azaldacaq, lazımi həcmdə silah-sursat ala bilməyəcək və beləliklə, zəifləyəcək və Ermənistan da bundan faydalanacaq. Buna Ermənistan sevinir, bu təbiidir. Amma başadüşülən deyil ki, buna Azərbaycanın bəzi vətəndaşları, yaxud da ki, özlərini Azərbaycan vətəndaşı sayanlar sevinir. Bu məlumat artıq ictimailəşib. Özünü milli şura adlandıran, əslində, antimilli qruplaşma kimi fəaliyyət göstərən dəstə görün necə sevinirdi ki, neftin qiyməti 14 dollara düşüb. Bir-birinə “şad xəbər” verirlər, təbrik edirlər və bəziləri deyir ki, hələ tələsməyin, hələ düşəcək, o vaxt sevinəcəyik. Bu nə deməkdir?! O deməkdir ki, bizim gəlirlərimiz azalacaq, lazımi sayda, həcmdə silah ala bilməyəcəyik. Özü də bu gün artıq dünya silah bazarı çox bahalı bir sahədir və hər bir silahın alınması çox böyük vəsait tələb edir, xüsusilə müasir dövrdə. Bu gün, əgər belə demək mümkündürsə, ağıllı silahlar üstünlüyü təmin edir. O silahlar ki, onların qiyməti çox bahadır və biz onları alırıq, alacağıq. Bizim imkanımız olmasa, onları ala biləcəyikmi? Yəni bu gün özünü müxalifət adlandıran bu mənfur dəstə nə istəyir? İstəyir ki, Azərbaycan onların dövründəki kimi Ermənistan qarşısında aciz qalsın, gücsüz qalsın, silahsız qalsın. Azərbaycanı torpaqlar əldən gedən dövrdəki hala salmaq istəyirlər. Ona görə Azərbaycan xalqı hər şeyi bilməlidir. Mən deyəndə ki, bu düşmənçilikdir, bu, müxalifətçilik deyil, - müxalifətçilik dövlətə qarşı ola bilməz, - mən tam haqlıyam. Bizi yenə də o qara günlərə qaytarmaq istəyirlər. O günlərə ki, biz o vaxt torpaqlarımızı itirmişik, məhz Azərbaycan Xalq Cəbhəsinin mənfur hakimiyyətinin yarıtmaz fəaliyyəti, satqınlığı nəticəsində torpaqlarımızı itirmişik. Onların hakimiyyət uğrunda gedən mübarizəsi nəticəsində torpaqlarımızı itirmişik. O vaxt torpaqlar əldən gedirdi, amma Azərbaycan Xalq Cəbhəsi burada vətəndaş müharibəsinə start vermişdi, qardaş qanı axıdılırdı. Ermənilər bizim şəhərlərimizi bombalayırdılar, şəhərlərimizi tuturdular, Kəlbəcəri işğal etmişdilər, onlar isə Gəncəni bombalayırdılar, öz şəhərlərini bombalayırdılar, Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Bu, xəyanət deyil, bəs nədir?! Şuşa kimi alınmaz qalanı ermənilərə satan satqınlar xəyanətkar deyil, bəs nədir?! Siz bunları yaxşı bilirsiniz. Məhz o dövrdə siz yaxınlarınızı itirmisiniz, öz sağlamlığınızı itirmisiniz, hər şeyi yaxşı xatırlayırsınız, o qara günləri xatırlayırsınız. Əgər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan müstəqil ölkə kimi qalacaqdı-qalmayacaqdı, bu, hələ böyük sualdır. Amma bizi yenə də o dövrə qaytarmaq istəyirlər. Bax, budur neftin qiymətinin düşməsinə sevinənlər. Mən demişəm, onlar ermənilərdən də pisdirlər.

Bildiyiniz kimi, bu yaxınlarda Ermənistanın hərbi təxribatı nəticəsində şəhidlərimiz olubdur, qan tökülüb, o cümlədən mülki vətəndaş həlak olub. Ermənistan ordusu Tovuz istiqamətində bizim mövqelərimizi, torpaqlarımızın bir hissəsini zəbt etmək üçün namərdcəsinə, qəflətən artilleriya silahlarından hücum təşkil edib və bunun nəticəsində hərbçilərimiz həlak olub, yaralanıb. Dərhal lazımi tədbirlər görülüb və qisas əməliyyatı keçirilib. Qisas əməliyyatı nəticəsində onlarca düşmən, onların texnikası məhv edilib. Yəqin ki, siz də o videogörüntüləri internetdə görmüsünüz, Azərbaycan Ordusu sərrast atəşlə, dəqiqliklə Ermənistanın dayaq məntəqələrini, idarəetmə məntəqələrini və digər hərbi infrastrukturunu necə məhv edir. Biz bunu nəyin hesabına edirik? Müasir silahlar hesabına. Bu silahlar Azərbaycanda istehsal olunmur. Bu silahların qiyməti çox yüksəkdir. Bizim maddi imkanlarımız olmasa, biz onu edə bilməzdik. Bu gün Azərbaycan Xalq Cəbhəsinin gözündə qalan arzusu budur ki, imkanımız olmasın, Azərbaycan yenə də torpaqlar itirsin.

Bizim hərbi qələbəmizi qeyd etmək üçün minlərlə insan küçələrə çıxdı, minlərlə insan dövlətə, orduya dəstək göstərdi. Bu gözəl mənzərə vətəndaş həmrəyliyinin bir rəmzi idi. İnsanların coşqusu və ehtirasları çox müsbət istiqamətdə gedirdi. Mən dərhal göstəriş verdim ki, hüquq-mühafizə orqanları, ilk növbədə, Daxili İşlər Nazirliyi asayişi qorumaq üçün bütün tədbirləri görsün. Yəqin, internetdə görmüsünüz ki, insanlarla bərabər, polis əməkdaşları da gedirdilər. Çünki insanlar avtomobil yolu ilə gedirdilər, orada hansısa qəza baş verə bilərdi. Çox nizamlı şəkildə hara gəldilər? Şəhidlər xiyabanına, ora da gəlməli idilər. Orada öz dəstəklərini ifadə etdilər. Ancaq bəzi çirkin ünsürlər, Azərbaycan Xalq Cəbhəsinin üzvləri bundan istifadə edib iğtişaş yaratmağa cəhd etdilər, parlament binasına soxuldular, orada dağıntılar etdilər. Parlament binasının əldə edilmiş qələbə ilə nə bağlantısı var? Bir də ki, bu qələbədir, bunu hamı etiraf edir. Ermənistan artıq bunu etiraf etməyə məcburdur. Biz bu günlərdə böyük xarici dəstək də görmüşük. Yəni xalqın iradəsi öz yerini tapmışdır, bunu bayram etmək lazımdır. Amma girib parlamentin binasının divarlarını, kabinetlərini dağıtmaq, sökmək nəyə lazım idi?! Üçüncü mərtəbəyə qədər qalxmışdılar. Kabinetlərin qapılarını, şüşələrini sındırırdılar. Sən gəlmisən burada ali qanunvericilik orqanını dağıtmağa? Bunu kim edə bilər? Düşmən, başqa heç kim.

Öz xalqına, öz Vətəninə bağlı olan adam müharibə gedən vaxtda bunu edər? İndi istintaq gedir. Mən istintaqı qabaqlamaq istəmirəm. Heç müdaxilə etmək fikrim də yoxdur. Amma hər şey göz qabağındadır. İndi bəzi görüntülər də ictimailəşdirilib. Görün, bu adamlar hansı miskin və aciz gündədirlər. Hanı bunların “hünəri”, hanı bunların “qəhrəmanlığı”? İndi qanun qarşısında cavab verəcəklər. Mən demişəm, bir daha da demək istəyirəm, bu cinayətləri, bu əməlləri törədən heç bir adam məsuliyyətdən qaça bilməyəcək. Bir-bir hamısını tapacağıq və bir-bir tapırıq. Son nəfərinə qədər tapıb məsuliyyətə cəlb edəcəyik. Qoy, xalq onları tanısın. Qoy, onların valideynləri utansınlar - onlar kimi böyüdüblər? Hansı manqurtları böyüdüblər? Ona görə ictimaiyyət bunu bilməlidir. Təkcə onlar yox, onların valideynləri də məsuliyyət daşıyırlar. Təbii ki, bu, mənəvi məsuliyyətdir. Amma qoy, valideynləri də utansınlar. Bu, nəyi xatırladır? Yəqin ki, siz də xatırlayırsınız 1992-ci ili. Azərbaycan Xalq Cəbhəsinin hərbi çevrilişi parlamentin binasının zəbt edilməsi ilə başlamışdı və orada da başa çatmışdı. O kadrlar da var, yəqin ki, televiziyalar onu göstərəcəklər. O vaxt Azərbaycan hakimiyyəti bunun qabağında dura bilmədi. Çünki cəsarət, qətiyyət göstərmədi, iradə və ən önəmlisi, xalqın dəstəyi yox idi. Ona görə orada bir dəstə adam yığışan kimi, oraya basqın edən kimi hakimiyyət tamamilə dağıldı. Hərə bir tərəfə çəkildi, gizləndi, biri evində, biri harada. Hakimiyyətsizlik hökm sürürdü. Eyni ssenari üzrə bunlar bu dəfə də bunu etməyə çalışırdılar. Eyni ssenari üzrə, parlamentin binasını zəbt etmək, orada öz hakimiyyətini elan etmək. İndi istintaq materialları bunu artıq göstərir. Yenə də deyirəm, qabaqlamaq istəmirəm, Azərbaycan xalqı hər şeyi biləcək. Faktiki olaraq hakimiyyəti qanunsuz yollarla zəbt etmək istəyirdilər. Amma mən dedim, onların fikri o illərə getməsin. İndi Azərbaycan o Azərbaycan deyil. Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü iqtidarı var, Azərbaycan iqtidarının güclü iradəsi var və ən önəmlisi xalqın dəstəyi var. Mən bu günlərdə hər gün bəlkə də minlərlə məktub alıram. O məktublarda vətəndaşlar öz dəstəyini ifadə edirlər, həmrəyik ifadə edirlər, mənim çıxışımdan sonra orduda xidmət etmək istəyirlər. Mən demişdim, orada şüşələri qıranlar getsinlər, yazılsınlar orduya. O gün cəmi 150 nəfər könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin məntəqələrinə gəlmişdir. Amma mənim sözlərimdən sonra heç bir həftə keçməyib, artıq 50 minə yaxın insan yazılıb. 50 minə yaxın Azərbaycan vətəndaşı, - onların mütləq əksəriyyəti gənclərdir, - Vətəni qorumaq üçün artıq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib, öz adlarını, ünvanlarını veriblər. Mən onlara təşəkkür edirəm. Bax, budur Azərbaycan xalqı, budur Azərbaycan gənci. Parlamentin şüşələrini, qapılarını qıran yox. Budur, bu gün Qarabağda ölümə getməyə hazır olan Azərbaycan gənci.

Mən bir daha onlara, onların valideynlərinə təşəkkürümü bildirirəm. Onlar xalqımız, dövlətimiz üçün dəyərli övladlar yetişdiriblər. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra edə bilər. Azərbaycan Ordusu tam komplektləşdirilib və əgər əlavə canlı qüvvə lazım olarsa, əlbəttə ki, biz bundan istifadə edəcəyik.

Səfərbərliyin elan edilməsinə hələ ki, heç bir ehtiyac yoxdur. Əgər lazım gələrsə, bu da olacaq. Mən demişəm, bir daha demək istəyirəm, - çox da dərinə getmək istəmirəm, - biz bilirik, nə vaxt, necə, nəyi etmək lazımdır. Biz öz siyasətimizdən əl çəkməyəcəyik. Bizim siyasətimiz ədalətli siyasətdir. Bizim siyasətimiz həm beynəlxalq hüquqa, tarixi ədalətə söykənir və biz istədiyimizə nail olacağıq.

Mən bir məsələyə də toxunmaq istəyirəm. İstəyirəm ki, Azərbaycan xalqı bunu bilsin. İndi, əlbəttə ki, məlumat məkanı çox genişdir. Biz bu günlərdə heç vaxt olmadığı qədər, - nə 1990-cı illərin əvvəllərində ki, müharibə gedirdi, nə də başqa dövrdə, - çox güclü beynəlxalq dəstək gördük. Təbii ki, ilk dəstək, ilk qardaşlıq addımı qardaş Türkiyədən gəldi. Türkiyə Cümhuriyyətinin hörmətli Prezidenti, mənim qardaşım Rəcəb Tayyib Ərdoğan birmənalı şəkildə Azərbaycanı dəstəklədi, bildirdi ki, Azərbaycanın yanındadır. Bildirdi ki, Azərbaycan və Türkiyə, iki qardaş ölkə hər zaman bir yerdə olacaqlar. Bu dəstəyə görə mən öz qardaşıma dərin təşəkkürümü bildirmək istəyirəm. Bu günlərdə biz daim təmasdayıq. Mənə telefonla zəng edib, dəstək ifadə edib, şəhidlərimizin həlak olması ilə əlaqədar başsağlığı verib. Deyib ki, biz sona qədər bir yerdəyik.

Mən də hər zaman dostum, qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana böyük hörmət göstərmişəm. Türkiyə xalqına mənim məhəbbətim heç kəs üçün sirr deyil. Dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkə yoxdur. Bu həm tarixə, bizim ortaq, etnik köklərə, həm də bugünkü siyasətə əsaslanır. Eyni zamanda Türkiyənin digər yüksək vəzifəli rəsmi şəxsləri, o cümlədən Müdafiə naziri, Xarici İşlər naziri, parlament üzvləri, ictimai xadimlər Azərbaycana birmənalı dəstək göstərmişlər.

Bir çox ölkələr fərdi qaydada rəsmi şəxslər səviyyəsində dəstək göstərmişlər. Ona görə də mən onlara minnətdaram. Beynəlxalq təşkilatlar, ilk növbədə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Azərbaycana dəstək göstərmişdir. Bu təşkilatda beş ölkə fəaliyyət göstərir - Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan. Onlar bu təşkilatın üzvləridir və Azərbaycana birmənalı dəstək göstərmişlər. Mən də cavab məktublarımda bu ölkələrin dövlət başçılarına öz təşəkkürümü bildirmişəm. Bu məktublar mətbuatda dərc edilib.

İslam Əməkdaşlıq Təşkilatı bizə birmənalı dəstək oldu. Orada 57 ölkə birləşir. Bu, həm haqq-ədalətə verilən, həm də Azərbaycana verilən dəstəkdir. Çünki siz də bilirsiniz, mən İslam həmrəyliyinin gücləndirilməsi üçün nə qədər səylər göstərirəm. Azərbaycan nə qədər çalışır ki, bəzi İslam ölkələri arasında olan hansısa ixtilaflar aradan qaldırılsın, yaxud da yumşalsın ki, ilk növbədə, biz öz evimizdə qayda-qanun, həmrəylik, dostluq yaradaq. Biz gərək, ilk növbədə, müsəlman aləmində birlik yaradaq. Çünki əgər burada birlik olmasa, onda bizim taleyimiz necə olacaq? Müsəlman ölkələri bunu qiymətləndirir. Bütün ölkələr - 57 müsəlman ölkəsi bizi dəstəklədi. Baxmayaraq ki, bu ölkələrin bəzilərində erməni icmaları kifayət qədər böyük imkanlara malikdir. Baxmayaraq bu ölkələrdə erməni rəsmi orqanları, onların səfirlikləri gecə-gündüz çalışırlar ki, bəzi müsəlman ölkələrini öz tərəfinə çəksinlər. Biz bunu görürük. Bəzən səfərlər edirlər. Bəzən dövlət başçısı səviyyəsində müsəlman ölkələrinə gedirlər. Biz hər şeyi izləyirik, baxırıq, baxmalıyıq. Bəzən, bəzi müsəlman ölkələrinin dövlət başçıları Ermənistana rəsmi səfərlər edirlər. Əlbəttə ki, bu bizi haqlı olaraq narahat edir. Bunu açıq şəkildə deyirik, həmrəylik sözdə yox, əməldə olmalıdır.

Müsəlman məscidlərini dağıdan Ermənistanla hansı əlaqələr ola bilər? Açın baxın internetdə, görün Ağdam məscidi nə gündədir, Şuşa məscidi nə gündədir, digər şəhərlərdəki məscidlər nə gündədir, onları söküblər. Bu azmış kimi, ermənilər orada heyvan saxlayırlar, hətta bizim müqəddəs ocaqlarımızı təhqir edirlər. Kim edir bunu? Ermənistan. Bu məscidlər təkcə bizim deyil, bütün müsəlman aləminə məxsusdur. Mən sual verirəm, necə ola bilər ki, belə çirkin əməllər törədən bir ölkə ilə hansısa əlaqələr olsun, hansısa dostluq haqqında danışsınlar? Hansı dostluq ola bilər? Ona görə, mən bir daha demək istəyirəm, Ermənistan çalışır ki, onları öz tərəfinə çəksin. Ancaq, ilk növbədə, o ölkələrin xalqları buna imkan verməyəcəklər və verməməlidirlər. Əgər görsələr ki, bu ölkələrin hakimiyyəti öz dini mənsubiyyətini ancaq dildə ifadə edir, o ölkələrin vətəndaşları öz sözünü deməlidir, Azərbaycanla həmrəy olmalıdır. Necə ki, biz bütün müsəlman ölkələri ilə həmrəyik, onlardan da eyni münasibət gözləyirik. Xüsusilə belə həssas günlərdə, həssas məsələdə ki, Ermənistan bizə hücum edib, bizim mövqelərimizi zəbt etmək istəyir, bizim hərbçilərimizi, mülki vətəndaşları öldürüb, kəndlərimizi dağıdıb. Mən dünən sərəncam imzaladım, Tovuz rayonunda zərər çəkmiş bütün binalar, - indi komissiya təşkil olunub, - inventarlaşdırılacaq və qısa müddət ərzində biz bütün evləri bərpa edəcəyik. Amma insanların həyatını bərpa etmək olarmı? 76 yaşlı ağsaqqalın həyatını bərpa etmək olarmı? Bunu kim edib? Ermənistan edib. Əfsuslar olsun ki, özünü bizə dost kimi təqdim etmək istəyən bəzi ölkələr onlara bu mərmiləri veriblər ki, Azərbaycan əsgərini, Azərbaycan vətəndaşını, uşağı, qocanı Xocalıdakı kimi öldürsünlər.

Ardı 3-cü səh.

# İnsanların rifahı və ölkəmizin güclənməsi Prezidentin daim diqqət mərkəzindədir





Əvvəli 2-ci səh.

O vaxt bizim gücümüz yox idi. Bizim deyəndə, əvvəlki iqtidarın, hansı ki, bu faciə vaxtı Azərbaycana rəhbərlik edirdi. Açıq danışmalıyıq, bu, belədir. Azərbaycan xalqı, Azərbaycan vətəndaşları hər şeyi bilməlidir. Ona görə İslam Əməkdaşlıq Təşkilatının bu qərarını biz çox yüksək qiymətləndiririk. Qoşulmama Hərəkatı da, - burada 120 ölkə cəmləşir, - birmənalı şəkildə Azərbaycanı dəstəklədi.

Mən sizin və Azərbaycan xalqının diqqətini bir məsələyə də cəlb etmək istəyirəm. Yəqin siz eşitmişiniz ki, biz Ermənistana başından güclü zərbə vurandan sonra onlar dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qaçdılar ki, bunları müdafiə eləsin. Tələb edirdilər ki, KTMT Azərbaycanı qınayan bəyanat versin. Buna nail ola bilmədilər, heç bir bəyanat verilmədi. Sadəcə olaraq bu hadisə ilə bağlı ümumi sözlərdən ibarət bir şərh verildi, vəssalam. Ancaq bildirməliyəm ki, KTMT-yə 6 ölkə üzvdür. Onlardan üçü beynəlxalq təşkilatlar yolu ilə Azərbaycana dəstək göstərdilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında, eyni zamanda KTMT-yə üzv olan Qazaxıstan və Qırğızıstan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası vasitəsilə bizə dəstək oldular. Belarus Qoşulmama Hərəkatında təmsil olunur. O da Qoşulmama Hərəkatının bəyanatına qoşularaq bizə dəstək oldu. Yəni altı ölkədən üçü Azərbaycanı birmənalı şəkildə dəstəklədi və başqa cür ola bilməzdi. Çünki biz onlarla dostuq, yaxşı günlərdə, çətin günlərdə onlar bizə etibar edə bilərlər. Bu, bir. İkincisi, qoy Ermənistanın qorxaq rəhbərliyi yadına salsın ki, qaçıb yardım almaq istədiyi KTMT-ni necə təhqir etmişdi, heç bir başqa ölkə ilə razılaşma aparmadan onun baş katibini həbs eləmişdi. Belarus nümayəndəsinin KTMT-yə yeni baş katib təyin olunmasının əleyhinə çıxmışdı. Bir il ona imkan vermədi ki, işə başlasın. Bəs nə oldu, o vaxt KTMT pis idi, sən onu təhqir edirdin, indi qaçıb onun ətəyindən yapışırsan. Gəl bizimlə təkbətək vuruş, təkbətək, baxaq görək bunun axırı nə olacaq.



Beləliklə, bütün bu məsələlər bir daha onu göstərir ki, bu gün Azərbaycan həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm mənfur qonşu ilə mübarizədə çox böyük bir gücə çevrilib. Bunu biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Azərbaycan xalqı tam əmin ola bilər ki, Azərbaycanın müstəqilliyi, azadlığı, insanların rifahı və ölkəmizin güclənməsi daim diqqət mərkəzində olacaq. Bizim üçün bir nömrəli milli məsələ - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə demişəm - beynəlxalq təşkilatlarda, beynəlxalq kürsülərdən, ölkə daxilində. Çox da təkrarlamaq istəmirəm, amma bir şeyi istəyirəm Azərbaycan xalqı bilsin ki, bu, milli məsələdir. Biz bu məsələni elə həll etməliyik ki, bu həll Azərbaycan xalqını tam təmin etsin. Hər hansı bir yarımçıq həll bizə lazım deyil. Çünki bu, müvəqqəti olacaq. Yarımçıq, sadəcə, mərhələ ola bilər. Ancaq məsələnin həlli tam olmalıdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. İşğal edilmiş bütün torpaqlar istisnasız azad edilməlidir. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Şuşaya qayıtmalıdır. Budur mənim siyasətim və bu, siyasətimin bir hissəsidir, o hissəsi ki, bu haqda hələ ki, açıq danışmaq olar.

Mənim fikrim nədən ibarətdir, siz hamınız yaxşı bilirsiniz. Azərbaycan öz tarixi keçmişinə sadiq olan ölkədir və tarixi yaxşı bilirik. Gələcəyi necə görmək istəyirik, onu da bilirik və Azərbaycan xalqı da bilir. Ona görə ölkəmizin ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb, olmamalıdır və olmayacaq. Biz öz doğma torpaqlarımıza qayıtmalıyıq və qayıdacağıq. İnşallah, ondan sonra orada sizinlə bir yerdə görüşüb bu günləri də xatırlayacağıq. Bir daha sizi ürəkdən təbrik edirəm, Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

Şəhid Əli Həsənovun həyat yoldaşı **Arifə Həsənova** çıxış edərək dedi:

- Mən şəhid Həsənov Əli İsmayıl oğlunun həyat yoldaşıyam.

Cənab Prezident, hörmətli Mehriban xanım, Siz həmişə şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə qayğı ilə yanaşmısınız. Buna görə bizim ailəmiz və qayğı göstərdiyiniz insanlar adından Sizə böyük minnətdarlığımızı bildiririk. Ötən il bizə 11 min manat məbləğində birdəfəlik ödəmə verdiyinizə görə Sizə təşəkkür edirəm. İndi isə bu gözəl binada bizə mənzil verdiyiniz, biz şəhid ailələrini və Qarabağ müharibəsi əlillərini həmişə diqqətinizdə saxladığınız üçün təşəkkür edirik. Hər şeyə görə çox sağ olun, hər şeyə görə Sizə minnətdarıq. Allah Sizə cansağlığı versin.

Prezident **İlham ƏLİYEV:** Çox sağ olun, təşəkkür edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram.

## Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# "Qüdrətli ölkəmizin son illər əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar Sizin adınızla bağlıdır"

Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezident saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.



Lənkəran şəhərindən **Aysel Hüseynova** yazır: "Hörmətli cənab Prezident, Siz zamanın sınağından ləyaqətlə çıxmış bir lidersiniz. Bu sınaqlarda xalq Sizin arxanızda, Siz onun yanında olmusunuz. Haqq mübarizəmizdə də qəsbkar, xəyanətkar erməni faşistləri zaman-zaman Sizin rəhbərliyinizlə layiqli cavablarını alıblar. Biz Sizin komandanlığınız, rəhbərliyinizlə torpaqlarımızı mənfur düşməndən azad edəcək, bu mübarizədə qalib gələcəyik".

Abşeron rayonundan **Şahnaz Əliyeva:** "Hörmətli cənab Prezident, yaşanan son hadisələr bir vətəndaş kimi hər birimizi narahat etdi. Amma bütün narahatlıqlara baxmayaraq, qüdrətli ordumuz düşmənə öz layiqli cavabını verdi. Sizin qətiyyətli çıxışlarınız, düşmənə verdiyiniz layiqli cavablar bizdə qürur hissi oyadır. Biz Sizinlə qürur duyuruq. Atdığınız hər bir addımı dəstəkləyirik. İnanırıq ki, bu gün həsrətlə danışdığımız Qarabağımız tezliklə bizim sevinc göz yaşlarımıza şahid olacaq. Tezliklə qələbə müjdəsi eşidəcəyik. Biz Sizə güvənirik. Allah Sizi və ailənizi qorusun".

Naftalan şəhərindən **Rahim Muradov:** "Hörmətli cənab Prezident, bu gün hər bir Azərbaycan gənci Azərbaycan Ordusu ilə fəxr edə bilər. Bu günlərdə qəhrəman Azərbaycan Ordusu erməni təxribatına layiqli cavab verərək düşmənə sarsıdıcı zərbələr vurmuşdur. Azərbaycan Ordusu Ermənistanın uzun illər öz ordusu haqqında uydurduğu miflərin yalan olduğunu bir daha sübut etdi. Cənab Ali Baş Komandan, güclü Azərbaycan naminə biz gənclər Sizinləyik, əmrinizi gözləyirik".

Cəlilabad rayonunun sakini **Elgün Kərimovun** məktubunda deyilir: "Hörmətli cənab Prezident, məlum olduğu kimi, Azərbaycan xalqı hər zaman erməni təxribatlarının şahidi olmuşdur. Mənfur düşmən bu gün də təxribatlarını davam etdirməkdədir. Belə ki, Ermənistan silahlı qüvvələrinin bölmələrinin iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində artilleriya qurğularından istifadə etməklə atəşkəs rejimini kobud şəkildə pozması açıq-aşkar təxribatdır. Azərbaycan-Ermənistan sərhədində baş verən təxribatın qarşısı Sizin qətiyyətiniz, ordumuzun əzmi sayəsində həm alındı, həm də düşməni qorxuya saldıq. Vətənimizin mərd oğulları onların öhdəsindən gəlməyi bacardı. Azərbaycan xalqı Sizə inanır. Sizin sayənizdə işğal olunmuş ərazilər qısa zamanda geri alınacaq".

Füzuli rayonunun Aşağı Yağlıvənd kəndindən **Elnur Səfərov:** "Hörmətli cənab Prezident, son günlər baş verən hadisələrdən sonra Azərbaycan xalqının Sizin yanınızda olduğunun və apardığınız siyasəti dəstəklədiyinin bir daha şahidi oldum. Bilirik ki, ordumuzun inkişafı həmişə Sizin siyasətinizin əsas hissəsini təşkil etmişdir. Vaxtında verdiyiniz tapşırıqlar nəticəsində güclənən ordumuzun düşmənə vurduğu zərbələr bir vətəndaş kimi məni çox qürurlandırdı. Biz ordumuza güvənərək Füzuli rayonunda ata-baba yurdumuzda rahatlıqla yaşayırıq. Aprel döyüşlərindən sonra işğaldan azad olunan Lələtəpə yüksəkliyində dalğalanan bayrağımız Azərbaycan Ordusunun inkişafının düzgün əllərdə olduğunu bir daha göstərdi. Sizin məcburi köçkünlərin, şəhid ailələrinin, müharibə veteranları və əlillərinin həyat şəraitinin yaxşılaşdırılması üçün gördüyünüz işlər təqdirəlayiqdir. Müharibədən əziyyət çəkən hər bir vətəndaş Sizin diqqət və qayğınızı hər zaman hiss edir. Mən bir gənc vətəndaş, məcburi köçkün kimi Sizin apardığınız siyasəti həmişə qürurla dəstəkləmişəm. Verəcəyiniz əmrə uyğun olaraq, ehtiyatda olan bir əsgər kimi doğma torpaqlarımızın işğaldan azad olunması üçün ordumuzun sıralarına qoşulmağa və Vətənimin azadlığı naminə canımdan keçməyə hazıram".

Abşeron rayonunun Masazır kəndindən **Elçin Sultanov:** "Hörmətli cənab Prezident, Ermənistanla sərhədin Tovuz rayonu istiqamətində baş verən hadisələr xalqla Sizin birliyinizi yenidən təsdiq etdi. Məhz Sizin liderliyinizlə Azərbaycan dövlətinin nüfuzu getdikcə artır, beynəlxalq təşəbbüslərimiz dünya miqyasında bəyənilir. Cənab Prezident, mən internat məktəbinin məzunuyam. "Məzunlar Evi"ndə yaşayıram, dövlətimizin qayğısı ilə əhatə olunmuşam. Doğma yurduma sevgimi, Sizə sədaqətimi nümayiş etdirmək, Vətənə olan borcumu qaytarmaq üçün hərbi xidmətə getmək, düşmənləri doğma torpaqlardan qovmaq istəyirəm. Buna görə də Sizin hər bir əmrinizə hazır olduğumu bildirirəm".

Bakı şəhərinin sakini **Məhərrəm Abdullayev:** "Möhtərəm Prezident, humanist rəhbər, müdrik Ali Baş Komandan, Azərbaycan dövlətinin və xalqının növbəti dəfə bəxti gətirdi ki, Ulu Öndər Heydər Əliyevdən sonra bizə uzaqgörən siyasəti, müdrik qərarları, xalqına yaxın olmağı ilə dünya liderlərindən fərqlənən bir lider rəhbərlik etdi. Hər addımında zəfər duyulan, "Mən hər bir azərbaycanlının Prezidentiyəm" söyləyən rəhbərin xalqını növbəti qələbələrə doğru aparacağına ürəkdən inanırıq və Sizi hər zaman dəstəkləyirik. Azərbaycan heç zaman bu qədər güclü olmamışdır və bu qüdrətli ölkəmizin son illər əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar Sizin adınızla bağlıdır. Bizə məhz Sizin kimi Vətəninə ürəkdən bağlı olan, novator, enerjili, qətiyyətli, müdrik və humanist bir lider lazımdır. Azərbaycanımızı işıqlı gələcəyə doğru inamla aparın, möhtərəm Prezident, cənab Ali Baş Komandan. Allah bu yolda yardımçınız olsun! Allah xalqımızı, Sizi və ailənizi qorusun!"

Lənkəran şəhərindən **Ağakişi Baloğlanlı:** "Möhtərəm cənab Prezident, son günlərdə baş verən düşmən təxribatı xalqımızı hiddətləndirmiş, düşmənə olan nifrətimizi daha da artırmışdır. İnanırıq ki, Sizin məqsədyönlü siyasətiniz xalqımızı daha böyük uğurlara, zəfərlərə aparacaq. Dövlətimizin yürütdüyü siyasət bir gün bizə o qələbəni, o sevinci yaşadacaq. Bu müqəddəs yolda həmrəyliyimiz, birliyimiz qarşısında düşmən diz çökəcək".

Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsindən **Aydan Cəfərova:** "Hörmətli cənab Prezident, torpaqlarımızın azadlığı uğrunda döyüşmək bizə şərəfdir. Azərbaycan tarixinin şanlı səhifələri igidlərlə yanaşı, qəhrəman qadınlarımız tərəfindən də yazılır. Bu qəhrəmanlıq salnaməmizə bu gün də yeni-yeni səhifələr əlavə edilir. Erməni qəsbkarları torpaqlarımıza təcavüz etməyə başladıqları andan bu günədək Azərbaycanın qəhrəman qızları igid oğullarımızla çiyin-çiyinə torpaqlarımızın bütövlüyü uğrunda mübarizə aparırlar. Mən də yüzminlərlə Azərbaycan gənci kimi, Vətən uğrunda döyüşə hazıram, səfərbərlik əmrinizi gözləyirəm. Hamımız inanırıq ki, bu mənfur düşməni mütləq yenəcək, işğal olunmuş torpaqlarımızı azad edəcək və qələbə marşları yazacağıq".

Goranboy rayonunun sakini **Mehparə Mustafayeva:** "Hörmətli cənab Prezident, Sizin uğurlu siyasətinizin bariz nümunəsidir ki, Azərbaycanda sabitlik hökm sürür, yoluxma halları getdikcə azalır. Bu günlərdə Sizin və Mehriban xanımın xalqımıza böyük qayğınızın və dəstəyinizin yenidən şahidi olduq. Allah Sizi qorusun. Ali dövləti fəaliyyətinizdə Sizə yeni uğurlar arzu edirik. Hazırda bütün dünya koronavirusla mübarizə aparır. Hətta ən böyük dövlətlər belə bu pandemiyaya qalib gələ bilmir. İtkilərimizin az olması, xəstəliklə səmərəli mübarizə aparmağımız məni sevindirir. Sizə sonsuz minnətdarlığımı bildirirəm, əziz Prezidentim".

Qubadlı rayonundan **Xəyalə Yusifova:** "Möhtərəm cənab Prezident, Sizin Ali Baş Komandan kimi fəaliyyətiniz, ordumuzun bugünkü potensial gücü, əsgər və zabitlərimizin döyüş qabiliyyəti və vətənpərvər ruhu, dövlətimizdə xalq-iqtidar birliyi, xüsusən də Sizə inam və sevgi bizi qürurlandırır. Sizin mötəbər beynəlxalq təşkilatlardakı qətiyyətli çıxışlarınız və söz sahibi olmağınız, dünya siyasətçiləri arasındakı xüsusi yeriniz, böyük dövlətlərin başçılarının Sizin şəxsinizə xüsusi hörməti hamımızı sevindirir. Cənab Prezidentim, bu günlərdə dövlət sərhədimizdə atəşkəsin Ermənistan təxribatçıları tərəfindən pozulması zamanı Sizin ətrafınızda bir yumruq kimi birləşərək təxribatçılara layiqli cavab verdik. Uğurlarımız daimi olsun".

Lənkəran rayonunun Zövlə kəndindən **Ələskər Şükürov:** "Hörmətli cənab Prezident, mən iki zabit atasıyam. Yaşım 65 olsa da, ürəyim ön cəbhədə olmaq, düşmənləri yurdumuzdan qovub çıxarmaq, Qələbə bayrağını dalğalandırmaq arzusu ilə döyünür. O gün mütləq gələcək! O zaman bütün şəhidlərimizin, canını Vətən yolunda fəda etmiş qəhrəmanlarımızın ruhları ağ göyərçinə dönüb Vətən göylərində Qələbə nəğməsi oxuyacaq. Tovuz döyüşləri göstərdi ki, xalqımız Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış münaqişənin həlli, ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, erməni təxribatlarının qarşısının alınması istiqamətində Sizin yürütdüyünüz siyasəti qətiyyətlə dəstəkləyir. Əli silah tutan vətənpərvər insanlar bu gün özünü Vətənin əsgəri hesab edir və düşmənin ölkəmizə uzanan qanlı əllərini kəsib atmağa hazırdır".

Goranboy rayonunun Qarasüleymanlı kəndindən **Tahirə Cəlilova:** "Möhtərəm cənab Prezident, dünyada yayılmış koronavirus pandemiyası ölkəmizdən də yan keçmədi. Sizin ölkəmizdə epidemiyanın geniş yayılmasının qarşısının alınması ilə bağlı verdiyiniz tapşırıqlar layiqincə yerinə yetirilir, vətəndaşlara diqqət və qayğı göstərilir. Bir vətəndaş olaraq əminəm ki, Sizin müdrik rəhbərliyinizlə biz tezliklə bu bəladan xilas olacağıq. İnsanların sağlamlığının qorunması məqsədilə bir çox sahələrdə çalışanların evdən işləmələrinə şərait yaradılıb. Bu təşəbbüs də dövlət tərəfindən irəli sürüldü, hətta işə gəlməyən işçilərin əməkhaqları saxlanıldı. İnanıram ki, Sizin müdrik qərarlarınızla biz bu bəladan minimum zərərlə qurtulacağıq. Sizinlə fəxr edirəm, Sizə dəstəyim misilsizdir. Bu gün dövlətin insanlardan ən böyük tələbi evdə qalmaqdır və yaradılan şəraitdə bu heç də çətin deyil. Allah Sizi və xalqımızı qorusun! Biz birlikdə güclüyük!".

Lənkəran rayonunun Separadi kəndindən **Gülnar Gülverdiyeva:** "Hörmətli cənab Ali Baş Komandan, Azərbaycanın Ermənistanla sərhədində təcavüzkar erməni birləşmələri tərəfindən iyulun 12-də törədilən təxribata qəhrəman ordu hissələrimizin layiqli cavab verməsi insanlarımızda böyük ruh yüksəkliyi yaratdı. Bu günlər Azərbaycan Ordusunun təxribat törədən, dinc sakinləri hədəfə alan azğın düşmən üzərində şanlı qələbəsi kimi tarixə düşdü və xalqımızın heç vaxt erməni işğalı ilə barışmayacağını, ordumuzun isə döyüşə hazır olduğunu göstərdi. Cənab Prezident, biz gənclər Sizə və şanlı ordumuza güvənirik. Biz bir yerdə güclüyük. Sizin Vətən uğrunda mübarizəniz müqəddəsdir. Allah Sizə yar olsun!"

# Prezident İlham Əliyevin yeni sərəncamı müharibə əlillərinin avtomobillə təminatının daha da gücləndirilməsinə şərait yaradır

*"Prezident İlham Əliyevin bu gün imzaladığı sərəncam Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olmuş, Çernobıl AES-də qəza nəticələrini aradan qaldırmaqda iştirak edib əlilliyi olmuş şəxslərin, II Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulanların sosial müdafiəsinə xüsusi qayğısının növbəti təzahürüdür".*

AZƏRTAC xəbər verir ki, bu fikir dövlət başçısının sərəncamı ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin yaydığı məlumatda qeyd olunub.

Məlumatda bildirilib ki, sərəncamda bu kateqoriyalardan olan vətəndaşların xüsusi nəqliyyat vasitələri almaq üçün tibbi göstərişlər üzrə avtomobillərlə təminatının gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulan Prezidentin Ehtiyat Fondundan 2 milyon 878 min 20 manat ayrılması tapşırılıb. Bu da cari ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müharibə əlillərinə və onlara bərabər tutulanlara ümumilikdə 400 avtomobilin təqdim olunmasına imkan verəcək.

Pandemiyanın məhdudiyyətlərinə baxmayaraq Prezident İlham Əliyevin tapşırığına əsasən bu il heç bir sosial proqram təxirə salınmayıb. Əksinə, bu proqramlar uğurla davam etdirilməklə əhəmiyyətli dərəcədə genişləndirilir. Belə proqramlardan biri də ölkəmizin ərazi bütövlüyünün müdafiəsi və 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxslərin, Böyük Vətən müharibəsi əlillərinin, Çernobıl əlillərinin dövlət hesabına minik avtomobilləri ilə təmin olunmasıdır. 2018-ci ildə həmin şəxslərə 265 avtomobil verilibsə, 2019-cu ildə nəzərdə tutulduğundan 3,2 dəfə çox olmaqla 600 avtomobil verilib. Bu il daha 400 avtomobil veriləcək. Artıq 150 avtomobil öz sahiblərinə təqdim edilib. Ümumilikdə indiyədək müharibə əlilləri və onlara bərabər tutulanlara 6900 minik avtomobili verilib.

Azərbaycan milli mətbuatı - 145

# Ölkəmizdə mətbuata dövlət qayğısı yüksək səviyyədədir

## İlham Əliyev jurnalistlərin ən yaxın dostudur





Əvvəli 1-ci səh.

### Dəyərlərə hörmət

Milli mətbuat günü xalqımız və dövlətimiz üçün müstəsna əhəmiyyətini hər zaman qoruyacaq tarixdir. Hər il bu əlamətdar gün xalqa təmənnasız xidmət etmiş bütün şəxsiyyətlərimizin ruhuna sevgi hissi ilə qeyd edilir. Bu il isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, pandemiya ilə əlaqədar ölkə ərazisində tətbiq edilən xüsusi karantin rejiminin tələbləri, bununla bağlı müvafiq tövsiyələr nəzərə alınmaqla yubiley tədbirləri keçirilir. Eyni zamanda, jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xüsusi xidmətləri olan jurnalistlər mükafatlandırılıb.

Hazırda bəşəriyyətin əsas probleminə çevrilmiş koronavirus pandemiyasına qarşı mübarizənin davam etdiyi, eyni zamanda daha bir təhlükəli virus kimi əsrlərdir bizə əziyyət verən erməni təxribatlarına qarşı cəbhə bölgəsində gərgin əməliyyatların aparıldığı ərəfədə dövlət rəhbərimizin milli mətbuat tariximizi də diqqətdən kənarda qoymaması Prezident İlham Əliyevin milli-tarixi dəyərlərimizə böyük sevgi və qayğısının daha bir ifadəsidir.

### "Əkinçi"dən başlanmış missiya

Azərbaycan milli mətbuatı xalqın önündə gedən insanların inkişaf arzularından, dünyanın yeni çağırışlarına həssaslığından, bu tərəqqidə Azərbaycanın da nişanəsini görmək istəyindən yaranmışdı.

Təxminən yüz il bundan əvvəl ayrı-ayrı qəzetlərin səhifələrində məqalə və şeirləri ilə çıxış edən böyük şairimiz Məhəmməd Hadi Azərbaycan xalqının o illərdəki mövqeyini, durumunu görərək vətəndaş vicdanının yanğısı ilə "Yox millətimin xətti bu imzalar içində" yazırdı. Bəli bu millətin liderinin təşəbbüsü ilə BMT-nin Baş Assambleyası kimi dünyanın ən mötəbər qurumunun xüsusi sessiyası çağırılır. Pandemiyaya qarşı birgə mübarizə ilə bağlı Azərbaycan Prezidentinin irəli sürdüyü təkliflər qəbul edilir. Dünya Azərbaycanın mövqeyinə dəyər verir. Bu mövqe ilə hesablaşırlar. Ölkəmiz qlobal inkişaf və müzakirə proseslərinin əsas mərkəzlərindən birinə çevrilir. Sivilizasiyaların təmas meydanı kimi bəşəriyyəti aktual mövzular ətrafında bir araya gətirir.

Bu, 145 il əvvəl belə bir istəklə ölkəmizdə mətbu ənənələrin əsasını qoymuş, bu ənənələri onilliklər ərzində qoruyub inkişaf etdirmiş şəxsiyyətlərimizin ruhuna ən böyük töhfə, ərməğan deyilmi?!

Bütün bunlar Azərbaycan dövlətinin müstəqillik yollarında qazandığı parlaq nailiyyətlərin göstəricisidir. Həmin nailiyyətlərin əldə olunmasında isə təbii ki, milli mətbuatımızın müstəsna rolu var.

Azərbaycanın müstəqillik tarixinin elə bir anı yoxdur ki, orada mətbuat görünməsin. Mətbuatımız o tarixi ana işıq tutmasın, öz səhifələrində, xronikalarında bunu sənədləşdirməmiş olsun. Əslində, müstəqillik tariximizin özü də müstəqil mətbuatımızdan başlanır. Ötən əsrin 80-ci illərinin sonlarında baş verən proseslər ölkəmizdə çoxsaylı kütləvi informasiya vasitələrinin yaranmasına şərait yaratdı. Yeni mətbuat ənənələri formalaşdı. Azərbaycanın dövlət müstəqilliyinin bərpası bu şəraiti daha da genişləndirdi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən demokratik islahatlar, hüququ dövlət quruculuğu prosesləri, ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşdırılması mətbuat tariximizdə yeni bir mərhələnin əsasını qoydu. Ölkəmizdə söz və mətbuat azadlığı 1995-ci ildə qəbul edilmiş Ana Qanunumuzda - Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olundu. 1998-ci ildə ölkəmizdə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər maneələr aradan götürüldü. Kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradıldı. Medianın problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi istiqamətində addımlar ardıcıl xarakter daşımağa başladı.

Qəzetlərin 2001-ci il dekabrın 31-dək "Azərbaycan" nəşriyyatına yaranmış, o vaxtın pulu ilə kifayət qədər böyük məbləğ edən 398 min manat borcunun Ulu Öndərin siyasi iradəsi ilə dövlət büdcəsindən ödənilməsini, redaksiyaların üzləşdiyi çox çətin durumda Heydər Əliyevin milli mətbuatımıza bu dəstəyini mətbuatda çalışanlar hər zaman minnətdarlıq hissi ilə xatırlayırlar.

Ümummilli Liderin mətbuat təmsilçiləri ilə mütəmadi görüşləri, verdiyi tövsiyələr, Azərbaycan mətbuatının inkişafı üçün atdığı addımlar da milli mətbuat tariximizin parlaq səhifələridir.

### "Jurnalistlər mənim köməkçilərimdir"

Ölkəmizdə kütləvi informasiya vasitələrinin maneəsiz fəaliyyəti üçün şərait yaradılması, ifadə azadlığının təmin olunması, bu sahədə qanunvericilik normalarının qorunması, medianın öz ictimai nəzarətçi funksiyasını yerinə yetirməsi Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin mühüm istiqamətini təşkil edir.

Son onilliklərdə ölkəni böyük inkişaf nailiyyətlərinə qovuşduran, cəmiyyətin bir çox sosial problemlərini aradan qaldıran, həyata keçirdiyi strateji layihələrlə respublikanın bu günü ilə yanaşı gələcəyini də yaradan dövlət rəhbərimiz yerinə yetirdiyi çətin və məsuliyyətli vəzifədə media nümayəndələrinə öz ictimai köməkçiləri kimi yanaşır. *"Jurnalistlər, əlbəttə ki, fəaliyyətləri ilə bu inkişafa öz töhfələrini verirlər. Cəmiyyəti incidən, narahat edən problemləri üzə çıxarırlar. Sizə deyə bilərəm ki, mən bəzi hallarda hansısa xoşagəlməz hadisə ilə bağlı məlumatı mətbuatdan əldə edirəm. Düzdür, mənə müxtəlif mənbələrdən hər gün müxtəlif məlumatlar gəlir. Yəni, əlbəttə ki, mənə həm xarici, həm daxili siyasətlə, həm də təhlükəsizlik məsələləri ilə bağlı əsas məsələlər məruzə edilir. İnsanları narahat edən məlumatlar haqqında mən mətbuatdan da xəbər tuturam, dərhal reaksiya verirəm. Dövlət məmurları və yaxud digər şəxslər, qüsurlara yol verən şəxslər bilirlər ki, Azərbaycanda söz və mətbuat azadlığı imkan verməyəcək ki, onlar işdə hansısa qüsurlar buraxsınlar. Ona görə jurnalistlər bəlkə də özləri də bilmədən mənim köməkçilərimdir. Buna görə də mən sizə minnətdaram. Əminəm ki, siz gələcəkdə də bütün cəmiyyəti narahat edən, incidən məsələlər haqqında yazacaqsınız, harada hansı ədalətsizlik var, qanunsuzluq var, dərhal operativ reaksiya verəcəksiniz, cəmiyyətin və dövlət orqanlarının diqqətini bu məsələlərə cəlb edəcəksiniz".*

### Mətbuata dövlət dəstəyi

Prezident İlham Əliyev Azərbaycan jurnalistlərinin dostudur. Cəmiyyət həyatının digər əhəmiyyətli sahələri kimi, milli mətbuatımızın da inkişafının əsas qarantıdır. Dövlət rəhbərimizin rəhbərliyi ilə qazanılmış nailiyyətlərdən zaman-zaman ölkə mətbuatı da bəhrələnir. Mətbuata dövlət dəstəyi siyasəti son illərdə daha da güclənib. Milli mətbuat günü hər il dövlət səviyyəsində qeyd olunur. Bu münasibətlə redaksiyalara yardımlar ayrılır. Yüzlərlə jurnalist öz qələmi ilə ölkəmizin inkişafına verdiyi əməyin qarşılığı kimi dövlət mükafatları ilə təltif edilir. Onlara fəxri adlar təqdim olunur. Bütün bunlar jurnalistlərimizin zəhmətinə verilən böyük qiymətdir. Təsadüfi deyil ki, jurnalistlərimiz də "RUH" Jurnalistləri Müdafiə Komitəsi tərəfindən aparılan rəy sorğusunda Azərbaycan Respublikasının Prezidentini bir neçə dəfə "Jurnalistlərin dostu" seçiblər.

Prezident İlham Əliyevin hələ 2008-ci ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" ötən dövr ərzində milli mətbuatımızın hərtərəfli inkişafına böyük təkan olub.

### Ənənələr qorunur

Məlumdur ki, indi müasir informasiya-kommunikasiya texnologiyalarının inkişafından irəli gələrək ənənəvi qəzetçilik bütün dünyada müəyyən böhran dövrünü yaşayır. Qəzet və jurnalları elektron media əvəz edir. Amma inkişaf etmiş cəmiyyətlərin hər birində ənənəvi qəzetlər, jurnallar yenə də ən etibarlı məlumat qaynağı kimi mövcudluğunu müəyyən səviyyədə qoruyur. İnsanlar ən doğru təhlilləri, dəqiq məlumatları məhz ənənəvi kütləvi informasiya vasitələrinin səhifələrindən ala biləcəklərinə əmindirlər. Kağız media elektron resurslar üçün zəngin material bazası rolunu da oynayır, keyfiyyətli məzmun yaradır.

Məsələnin başqa tərəfi də var. Kağız media xalqın tarixidir. Ötüb keçən illərin, baş verən hadisə və proseslərin kağız üzərində min illərlə yaşayacaq sənədli salnaməsidir. Ona görə də qəzet, jurnal, kitab onun müəllifini, redaktorunu daha məsuliyyətli olmağa sövq edir. Bir atalar sözümüzdə deyildiyi kimi, həqiqətən, "Yazıya pozu yoxdur". Ona görə də kağız formatında fəaliyyət göstərən mətbu orqanlarında hər söz, fikir az qala zərrəbinlə yoxlandıqdan sonra səhifəyə qoyulmalıdır.

Onlayn medianın operativlik, hər kəs üçün bir anda əlçatanlıq baxımından kifayət qədər böyük üstünlükləri olsa da, əfsus ki, tarixi soraq, dəqiqlik, mötəbərlik funksiyasını eyni şəkildə yerinə yetirə bilmir. Bir tərəfdən, onlayn mediadakı hər hansı mətni, məzmunu, faktı, sübutu bir dəqiqənin içində tamam başqa cür dəyişmək, ya da tamamilə itirmək mümkündür. Digər tərəfdən isə, illər boyu min bir əziyyətlə elektron resurslarda toplanmış materiallar hər hansı texnogen amillər üzündən bir anda yoxa çıxa bilər. Ona görə də ənənəvi media ənənələri yaşadılmalıdır. Cəmiyyət tarix, həqiqətin qorunması, mənəvi irsin gələcək nəsillərə ötürülməsi naminə bu ənənələrin mühafizəsinə, inkişafına bacardıqca dəstək verməlidir.

Məhz Azərbaycan Prezidentinin diqqət və qayğısı nəticəsində bu gün milli mətbuatımız öz tarixi ənənələrini yaşada bilir. Dövlətimizin, xalqımızın yazılı salnaməsini yaratmaqda davam edir.

### Öncə Vətən

Azərbaycan dövlətinin iqtisadi qüdrəti artdıqca kütləvi informasiya vasitələrinin, jurnalistlərin sosial problemlərinin həlli istiqamətində də tədbirlər həyata keçirilir. 2013-cü ildən başlayaraq Azərbaycan jurnalistlərinin mənzillərlə təmin olunması, bunun xoş bir ənənəyə çevrilməsi Bakının mərkəzində jurnalistlər şəhərciyinin salınması buna bir nümunədir. Hər yeni binada mənzillərin paylanması mərasimində Azərbaycan Respublikası Prezidentinin şəxsən iştirakı da jurnalistlərə diqqət və qayğının ifadəsidir.

Dünyanın heç bir ölkəsində dövlət media nümayəndələrinin fəaliyyətinə bu səviyyədə dəstək vermir. Bu gün Azərbaycan internet azadlığının ideal səviyyədə olduğu ölkələrdəndir. Vətəndaşların ifadə azadlığı ən yüksək səviyyədə təmin olunub. Əlbəttə, söz azadlığının ayrılmaz tərkib hissəsi olan sosial məsuliyyət prinsiplərinin qorunması, yayılan, tirajlanan hər sözün məsuliyyətinin hər kəs tərəfindən dərki üçün də dövlət üzərinə düşən vəzifələri yerinə yetirməyə çalışır. Feyk xəbərlərin dünyanın bütün ölkələrində cəmiyyət üçün ciddi problemə çevrildiyi, insanların mediada təhqirə məruz qaldığı, şəxsi və işgüzar nüfuzunun zədələndiyi, insanların yaydıqları sözlə bağlı fərdi məsuliyyət hissinin azaldığı müasir çağlarımızda buna çox böyük ehtiyac var. Azərbaycan dövləti də başqa sivil ölkələr kimi bu sahədə tənzimləyici həllər axtarır. Eyni zamanda mətbuat mühitinin sağlamlaşdırılması, media nümayəndələrinin peşəkarlıq səviyyəsinin artırılması, sözün dəyər qazanması üçün addımlar atılır.

Azərbaycan dövlətinin milli maraqlarının qorunmasında, ölkəmizə qarşı yönələn informasiya təxribatlarının qarşısının alınmasında, tarixi həqiqətlərimizin dünyaya çatdırılmasında mətbuat, jurnalistlər yaxından iştirak edirlər. Bunu Ermənistanın son günlər sərhəd bölgəsində törətdiyi təxribatlara qarşı apardığımız haqq davasında da müşahidə etməkdəyik. Sağlam düşüncə ilə fəaliyyət göstərən hər bir mətbuat orqanı, qələm sahibi bu məsələdə dövlətimizin, Ordumuzun, Ali Baş Komandanımızın yanındadır. Azərbaycan jurnalistləri qələmlərini süngüyə çevirərək öz yazıları, obyektiv rəyləri ilə həm erməni işğalçılarına, həm də xaricdə əyləşib Azərbaycana qarşı təxribatlarda iştirak edən xainlərə, "sapı özümüzdən olan baltalara" qarşı savaş aparırlar. Bu, belə də olmalıdır. Azərbaycana canı-qanı ilə bağlı olan hər bir jurnalist üçün öncə Vətəndir. Xalqımızın milli maraqlarıdır. "Əkinçi" qəzeti də 145 il əvvəl bu yurda sevgidən doğulmuşdu.

Və Azərbaycan mətbuatı Vətənə bu sonsuz sevgini yaşatmaqla "Əkinçi"nin, Həsən bəy Zərdabinin ruhunu yaşadır.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

# Naxçıvanda mətbuat zəngin ənənələr üzərində inkişaf edir

Qədim və zəngin maarifçilik ənənələrinə malik Naxçıvanda mətbuatın yaranması milli mədəniyyət və ictimai fikir tariximizdə mühüm mərhələ təşkil edir. 1921-ci ilin noyabrında Gənclər İttifaqının orqanı olan "Cavanlar həyatı" qəzetinin nəşrə başlaması ilə Naxçıvanda qəzetçiliyin təməli qoyulmuş, hələ XIX əsrin 90-cı illərindən pərvəriş tapan qəzet nəşr etdirmək ideyası, nəhayət ki, gerçəyə çevrilmişdir.

Vərəqə şəklində çap olunan "Cavanlar həyatı" qəzeti iki aya yaxın müddət ərzində fəaliyyət göstərmiş, 1921-ci ilin dekabr ayından etibarən Naxçıvanda "Füqəra səsi" adlı yeni bir qəzet nəşr olunmuşdur. Bu mətbu orqanlar 1922-ci ilin aprel ayından nəşr edilməyə başlayan "Şərq qapısı" qəzetinin sələfləri kimi öz dəyərli təsdiqini tapmışdır. "Şərq qapısı" 1930-cu ilədək ərəb, 1930-40-cı illərdə latın, 1940-cı ildən 2001-ci ilin iyununadək kiril əlifbası ilə çap olunmuşdur. Həmin dövrdən latın qrafikalı əlifba ilə nəşr edilir. Qəzet 1979-1989-cu illərdə "Sovet Naxçıvanı" adı ilə çıxarılmışdır ki, bu da "Şərq qapısı" adına Şərq ölkələrinə, türk-müsəlman dünyasına meyillilik kimi siyasi don geyindiriləcəyindən ehtiyat edilməsi ilə əlaqədardır.

1937-1938-ci illərin məşum repressiya təlatümündən keçən "Şərq qapısı" İkinci Dünya müharibəsi illərində alman faşizminə qarşı alovlu ideoloji mübarizə silahına çevrilmiş, vətənpərvərlik ruhunda yazıları, ön və arxa cəbhə arasında mənəvi körpü yaratması ilə fəaliyyətini doğrultmuşdur. Müharibədən sonrakı dövrlərdə "Şərq qapısı" qəzeti tarixi yolunu davam etdirərək ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasına ciddi diqqət yetirmişdir.

XX əsrin 70-ci illərində - Ümummilli Lider Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyə gəlişindən sonra milli ideologiyanın inkişafı, mətbuata göstərilən qayğı "Şərq qapısı"nın da fəaliyyətinə əhəmiyyətli təsir göstərmişdir. Ötən əsrin 70-80-ci illərində "Şərq qapısı" qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Qəzetin 50 illik yubileyində "Şərəf nişanı" ordeni ilə təltif olunması həmin dövrdə Azərbaycana rəhbərlik edən görkəmli dövlət xadiminin mətbuata böyük qayğısının təzahürü idi. Həmin dövrdə qəzet azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən yazılarla çıxış etmiş, cəmiyyətdəki nöqsanlara qarşı cəsarətlə mübarizə aparmışdır.

XX əsrin 90-cı illərinin əvvəllərində "Şərq qapısı" qəzeti Sovetlər Birliyində nəşr olunan müstəqil mətbuat orqanı kimi tarixə düşmüşdür, 1990-cı il 20 yanvar tarixdən etibarən səkkiz nömrəsi müstəqil çıxan qəzet milli həmrəylik, demokratiya və milli müstəqillik uğrunda mübarizədə ideoloji bayraqdar funksiyasını yerinə yetirmişdir. Ümummilli Lider Heydər Əliyevin "Şərq qapısı" qəzetinin 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan, Ulu Öndərin Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında dərc olunmuş ilk müsahibəsi də qəzetin fəaliyyət tarixində şanlı səhifəni təşkil edir. Qəzet muxtar respublikamızda fəaliyyət göstərən görkəmli dövlət xadiminin müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olmuşdur. 1990-1993-cü illərdə muxtar respublikanın xilas olunması istiqamətində həyata keçirilən tədbirlər, qəbul edilən qərarlar, beynəlxalq səviyyəli danışıqlar burada dolğun əks etdirilmişdir. Bu dövrdə Ulu Öndər qəzetin fəaliyyəti ilə yaxından maraqlanmış, çətin şəraitdə belə onun nəşr olunmasını təmin etmişdir. Dahi şəxsiyyətin bu mətbu orqan haqqında söylədiyi fikirlər, bütünlükdə, milli mətbuata, jurnalistikaya verilən yüksək dəyərdir: *"Şərq qapısı" qəzeti öz səhifələrində muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatını, əhalisinin qayğı, istək və arzularını dolğun əks etdirməklə oxucularının rəğbətini qazanmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra "Şərq*



*qapısı" qəzetinin kollektivi öz fəaliyyətində əsaslı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur. Əminəm ki, "Şərq qapısı" qəzeti Azərbaycanın azad və demokratik mətbuat sistemində layiqli yer tutaraq dövlətçiliyimizin möhkəmləndirilməsi yolunda bütün qüvvələrini səfərbər etmək, hər bir oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaq üçün var gücünü sərf edəcəkdir".*

"Şərq qapısı" qəzeti müxtəlif dövrlərdə mövcud olan siyasi-ideoloji maneələrə baxmayaraq, fasiləsiz nəşr olunmuş, muxtar respublikanın mətbu salnaməsinə çevrilmişdir. Bir neçə nəsil üçün siyasi-ədəbi, mənəvi məktəb rolu oynayan "Şərq qapısı"nın nəşri tarixi, onun Naxçıvanda ədəbi mühitin formalaşmasındakı rolu elmi-tədqiqat obyektinə çevrilmiş, 2010-cu ildə qəzetin fəaliyyəti ilə bağlı yeni qiymətli elmi faktlarla zəngin "Şərq qapısı" qəzeti və Naxçıvanda ədəbi mühit" monoqrafiyası, 2019-cu ildə isə "Naxçıvanda mətbuat tarixi" kitabı Almaniyada ingilis dilində nəşr olunmuşdur.

Bu mətbu orqan son illərdə Naxçıvanın dünyada təbliği və tanıdılması, diyarımızla bağlı düzgün ictimai rəyin formalaşması istiqamətində əhəmiyyətli işlər görmüşdür. 2016-cı ildə dünyanın nüfuzlu mətbuat orqanlarında qədim diyarımızla bağlı dərc olunan səfər təəssüratlarının, qəzet əməkdaşlarının xarici qonaqlarla müsahibələrinin bir qismi toplanaraq "Naxçıvan dünya mətbuatında" kitabı çap olunmuşdur.

Son 30 ilə yaxın bir dövr ərzində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli sərəncamından sonra qəzetin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Milli mətbuatımızın 135 illik yubileyində - 2010-cu il iyulun 22-də "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılmışdır.

Bu gün "Şərq qapısı" qəzeti redaksiyasında istər jurnalist peşəkarlığı, istərsə poliqrafik keyfiyyət baxımından müasir tələblərə cavab verəcək, dünya qəzetçilik arenasına çıxa biləcək bir qəzetin nəşri üçün müasir iş şəraiti yaradılmışdır. 2012-ci ildə **www.serqqapisi.az** saytı vasitəsilə qəzet dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəməyə başlamışdır. Ötən il isə qəzetin internet saytı tamamilə yenilənmişdir. Qlobal informasiya məkanına bu çıxış imkanı bu gün Naxçıvanla bağlı dəqiq informasiyanın dünyaya çatdırılmasında mühüm rol oynayır. Qəzet daim dövlətin diqqət və qayğısı ilə əhatə olunmuş, 75, 80, 85, 90 illik yubileyləri qeyd edilmişdir. 2011-ci ildə "Şərq qapısı"nın 90 illik yubileyində qəzet Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edilmiş, bir əməkdaş mənzillə təmin olunmuşdur.

Bu gün muxtar respublikada məqsədyönlü media siyasətinin, kütləvi informasiya vasitələrinin inkişafına hərtərəfli dövlət qayğısının nəticəsidir ki, bir əsrə yaxın tarixə malik bir qəzetlə yanaşı, Naxçıvanda Universitet Televiziyası və "Nuhçıxan" radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio, şəhər və rayon qəzetləri, ali təhsil və elm müəssisələrinin qəzet və jurnalları, "Nuhçıxan" İnformasiya Agentliyi, "Naxçıvan xəbərləri" saytı, Naxçıvan Mətbuat Şurası, Televiziya və Radio Şurası, 400-ə yaxın jurnalist fəaliyyət göstərir.

Ali Məclis Sədrinin 2019-cu il 19 sentyabr tarixli fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması isə bu sahəyə dövlət qayğısının növbəti ifadəsi, informasiya idarəçiliyinin düzgün tənzimlənməsi istiqamətində mühüm addım olmaqla, Naxçıvanda medianın inkişafında yeni mərhələnin əsasını qoydu. Naxçıvan Mətbuat Şurasının ötən ildən etibarən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması isə Naxçıvan mediasının beynəlxalq müstəviyə çıxarılma səviyyəsini təsdiqləyir.

Ölkəmiz, bütünlükdə, milli mətbuatımızın 145 illiyini təntənə ilə qeyd edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" 2020-ci il 30 iyun tarixli Sərəncamda kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna siyasi qiymət verməklə yanaşı, jurnalistlər qarşısında mühüm vəzifələr də qoyur.

Bir əsrə yaxın şərəfli inkişaf yolu keçən, sağlam məfkurəli ideyası ilə doğma Naxçıvanımızın real salnaməsinə çevrilən muxtar respublika mətbuatı da bu vəzifələri, Ali Məclis Sədrinin mətbuat işçiləri ilə keçirdiyi görüşlər zamanı verdiyi dəyərli tövsiyə və tapşırıqları fəaliyyət prinsipləri kimi rəhbər tutaraq muxtar respublikamızın tarixinin salnaməşdirilməsi üçün bundan sonra da var-qüvvəsini əsirgəməyəcək. Bir sözlə, Şərqin qapısı Naxçıvanda fəaliyyət göstərən qocaman, həm də zamanın nəbzini tutmağı bacaran mətbuatımız əsrlərarası körpü, keçmişdən gələcəyə açılan möhtəşəm bir mənəviyyat qapısı olacaq.

***Mehriban SULTAN, "Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# *Prezidentin köməkçisi:* “Ermənistanın beynəlxalq sülh təşəbbüslərini dəstəkləməsi ilə bağlı bəyanatları riyakarlıqdan başqa bir şey deyil”

Azərbaycan Silahlı Qüvvələri tərəfindən mülki obyektlərin, o cümlədən kritik infrastrukturun hədəfə alınması Azərbaycanın heç zaman siyasəti olmayıb, olmayacaq da. Bu, Ermənistandır ki, belə məsələləri siyasi məqsədlər üçün, dezinformasiya məqsədilə istifadə edir.



AZƏRTAC xəbər verir ki, bu fikirləri iyulun 21-də mətbuat konfransında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Metsamor AES-lə bağlı Ermənistanda səslənən fikirlərə münasibət bildirərkən söyləyib.

Hikmət Hacıyev deyib ki, Ermənistanın əvvəlki prezidenti ölkəsinin arsenalında olan “İsgəndər” və “Skad” raketləri ilə Azərbaycanın Bakı və onun ətrafında yerləşən neft-qaz infrastrukturlarını birbaşa vurmaqla hədələyib. Bundan əlavə, Ermənistanın siyasi-hərbi rəhbərliyi onların arsenalında olan “İsgəndər” və digər raket sistemləri vasitəsilə Azərbaycanın Mingəçevir Su Anbarını vurmaqla hədələyib, həmçinin Azərbaycanın şəhərlərini darmadağın edəcəkləri ilə bağlı təhdid xarakteri daşıyan açıqlamalarla çıxış edib. Bundan başqa, hadisələrin gedişi zamanı Ermənistan tərəfindən Azərbaycan Respublikasının kritik əhəmiyyət daşıyan infrastrukturlarının, həmçinin neft-qaz boru kəmərlərinin hədəfə alınacağı xarakteri daşıyan açıqlamalar verilib. Bütün bunlar bilavasitə Ermənistanın siyasi-hərbi rəhbərliyinin açıq niyyətini göstərməkdədir.

“Bir daha qeyd etmək istəyirəm ki, Ermənistandan fərqli olaraq Azərbaycan tərəfindən hər hansı strateji obyektlərin hədəfə alınması kimi siyasətimiz yoxdur. Bununla bağlı yalnız fərdi əsasda söylənilən hər hansı fikri Ermənistan tərəfi məqsədyönlü şəkildə dezinformasiya kimi istifadə etmək istəyir və burada da Ermənistanın məqsədi öz çirkin niyyətlərini, cinayətlərini örtbasdır etməkdən, beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaqdan ibarətdir.

Bilirsiniz ki, BMT-nin Baş katibi tərəfindən qlobal atəşkəs təşəbbüsü irəli sürülüb. Dünyanın bir çox dövlətləri, hətta Ermənistan tərəfi də buna qoşulub. Amma BMT-nin Baş katibinin qlobal atəşkəs haqqında təşəbbüsünü dəstəklədiyini iddia edən Ermənistan iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədində atəşkəsi kobud şəkildə pozaraq bu təxribatı törətdi. Bu, bir daha açıq şəkildə göstərir ki, Ermənistanın yürütdüyü siyasət riyakarlıqdır. Onun beynəlxalq sülh təşəbbüslərini dəstəkləməsi haqqındakı fikir və bəyanatları riyakarlıqdan başqa bir şey deyil. Ermənistan iyulun 12-də törətdiyi təxribatla əsl xislətini bir daha nümayiş etdirdi.

Hadisələrin gedişi onu göstərir ki, yalnız atəşkəs kifayət deyil. Ermənistan atəşkəsin arxasında gizlənərək Azərbaycana qarşı təcavüzkar siyasətini davam etdirir. Son hadisələr də onu göstərdi ki, işğal və təcavüzə son qoymaq lazımdır. Münaqişənin fundamental həllini tələb edən əsas şərtlərdən və amillərdən biri Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünə son qoyulmasıdır. Təcavüz aktına soy qoymaqla bərabər, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi təmin olunmalıdır. Ümumiyyətlə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsi mexanizmlərinə yenidən baxılmalıdır”, - deyə Prezidentin köməkçisi qeyd edib.

# *Hikmət HACIYEV:* “Ermənistan son hərbi təxribatı ilə qarşıya qoyduğu heç bir məqsədə nail ola bilmədi”

*“Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın törətdiyi təxribatdan dərhal sonra aidiyyəti dövlət qurumlarına zəruri tapşırıqlar verilib”.*

AZƏRTAC xəbər verir ki, bu barədə iyulun 21-də keçirilən mətbuat konfransında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, bu məsələyə Təhlükəsizlik Şurasının və Nazirlər Kabinetinin iclaslarında Prezident İlham Əliyev tərəfindən tam qiymət verilib.

Hikmət Hacıyev bildirib ki, hadisələrdən əvvəl Ermənistanda yeni irticaçı doktrina qəbul edilib. Bu, Ermənistanın təxribat törədəcəyinə dəlalət edirdi. Ermənistanda yeni milli təhlükəsizlik strategiyası qəbul olunub. İyulun 12-də isə Tovuz istiqamətində qəfil artilleriya zərbəsi endirilib. Ermənistan UAZ avtomobilinin postlarına yaxınlaşdığını iddia edir. Bu əsassızdır. Bu, Ermənistanın əvvəlcədən planlaşdırdığı hərbi təcavüzdür.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistanın məqsədi ilk növbədə diqqəti Ermənistan-Azərbaycan münaqişəsindən yayındırmaq idi. Məqsəd Ermənistanın üzv olduğu hərbi-siyasi təşkilatları, üçüncü tərəfləri münaqişəyə cəlb etmək, Azərbaycanın son dövrlər beynəlxalq səviyyədə apardığı uğurlu işlərə kölgə salmaq idi. Eyni zamanda “Şərq-Qərb Nəqliyyat Dəhlizi”nə, neft-qaz boru kəmərlərinə zərər gətirmək, regionu yeni ekoloji fəlakətlərlə üz-üzə qoymaq, yeni ərazilər işğal etmək, sərhəd boyunca yeni üstünlüklər əldə etmək, Ermənistanda mövcud olan daxili problemlərdən diqqəti yayındırmaq, həmçinin Aprel və Günnüt əməliyyatlarında Ermənistana vurulmuş zərbənin qisasını almaq da qarşıya qoyulan məqsəd idi. Lakin Ermənistan qarşıya qoyduğu heç bir məqsədə nail ola bilmədi. Azərbaycan Ordusu düşmənin hücum və təcavüz aktının qarşısını aldı, Ermənistan silahlı qüvvələrinə layiqli zərbə endirildi, sərhədlərimizin toxunulmazlığı, mülki əhalinin qorunması təmin olundu. Bu təcavüz aktına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ermənistan sivil dünya üçün təhlükə olmaqda davam edir.

* * *

*“Ermənistandan fərqli olaraq Azərbaycan heç vaxt mülki obyektlərin hədəfə alınması barədə düşünməyib. Ermənistan tərəfi qəsdən belə dezinformasiya yayaraq məsələni siyasiləşdirməyə çalışır. Azərbaycan tərəfi heç zaman mülki obyektləri hədəfə almaqla bağlı fikir səsləndirməyib. Ancaq Ermənistan tərəfi dəfələrlə Azərbaycanın Mingəçevir su anbarını, neft-qaz boru kəmərlərini, Azərbaycanın şəhərlərini vurmaqla bağlı təhdid dolu bəyanatlar səsləndirib”.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri Hikmət Hacıyev bildirib. Prezidentin köməkçisi qeyd edib ki, bütün bunlar Ermənistanın hərbi-siyasi rəhbərliyinin məkrli məqsədini göstərir. Ermənistan tərəfi bu cür məsələlərlə öz cinayətlərini ört-basdır etməyə və beynəlxalq ictimaiyyətin diqqətini yayındırmağa cəhd edir.

Hikmət Hacıyev onu da bildirib ki, Ermənistan tərəfi saxta şirkətlər yaradaraq qara bazarda qanunsuz silah təchizatı ilə məşğul olur. O bu silahların terrorçuların əlinə keçməsi barədə məlumatların da olduğunu diqqətə çatdırıb.

* * *

*“Ermənistan çətin vəziyyətə düşən kimi yenə də mülki obyektləri hədəf almağa başladı”.*

AZƏRTAC xəbər verir ki, bu fikri bildirən Hikmət Hacıyev deyib ki, həmişə olduğu kimi, yenə də Azərbaycanın yaşayış obyektləri hədəf alındı. Azərbaycan Ordusu Ermənistanın atəş məntəqələrini susdurdu. Təəssüf ki, 76 yaşlı bir mülki şəxs həlak oldu. Ermənilərin mülki əhaliyə vurmaq istədikləri zərbənin qarşısı Azərbaycan Ordusunun uğurlu tədbirləri nəticəsində alındı. Mülki əhaliyə, dövlət mülkiyyətinə dəymiş zərərlərin Prezident İlham Əliyevin sərəncamına əsasən qiymətləndirilməsi aparılır.

Hikmət Hacıyev vurğulayıb ki, Ermənistanın bu hücumları beynəlxalq sənədlərə və razılaşmalara ziddir. Ermənistan törətdiyi bu əməllərə görə məsuliyyət daşımaqla bərabər, bu ölkənin hərbi-siyasi rəhbərliyi də beynəlxalq hüquqa görə cinayət məsuliyyəti daşıyır.

* * *

*“Azərbaycan tərəfi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı imitasiya xarakteri daşıyan danışıqlarda iştirak etmək fikrində deyil”.*

AZƏRTAC xəbər verir ki, bu fikri söyləyən Prezidentin köməkçisi deyib ki, danışıqlar Minsk qrupunun mandatına uyğun çərçivədə aparılmalıdır. Minsk qrupunun mandatı beynəlxalq prinsipləri, Helsinki Yekun Aktını, BMT-nin qətnamələrini əsas tutaraq danışıqları aparmaqdır.

“Azərbaycan tərəfi gözləyir ki, Minsk qrupunun həmsədrləri öz səylərini artırsınlar və danışıqlar daha intensiv aparılsın. Minsk qrupu prosesində 11 dövlət iştirak edir və bu dövlətlərin hər birinin iştirakı ilə geniş iclasın keçirilməsinə ehtiyac var”, - deyə Hikmət Hacıyev qeyd edib.

# Ermənistanın atəşkəs razılaşmasını pozaraq hücum etməsi Azərbaycan tərəfindən pislənilir

Nüfuzlu “The Korea Times” qəzeti Ermənistanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi son təxribat haqqında məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müəllifi olduğu məqalədə Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə Ermənistan və Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan silahlı qüvvələrinin mövqelərini atəşə tutduğu qeyd olunur.

Bildirilir ki, Azərbaycan Silahlı Qüvvələrinin cavab atəşi və əks-həmlə tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin hücum cəhdinin qarşısı alınıb. Ermənistan tərəfi hər hansı ərazi əldə etməyə müvəffəq olmayıb.

Hikmət Hacıyev qeyd edir ki, Ermənistan tərəfindən Ermənistan-Azərbaycan sərhədində artilleriya qurğularından istifadə edərək Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücum edilməsi təcavüzdür, güc tətbiq etmək aktıdır və növbəti təxribatdır. Ermənistan-Azərbaycan sərhədində təxribatların qarşısının alınması və gərginliyə səbəb ola biləcək halların aradan qaldırılması üçün Qazax və Tovuz rayonları boyunca Azərbaycan tərəfindən dövlət sərhədinin xeyli hissəsinə Dövlət



The Korea Times

National

Politics Diplomacy Defense Labor & Environment Law & Crime Health & Welfare Embassy Seoul & Provinces Education Foreign Communities Obituaries Multicultural Youth Award Presentation Contest

Azerbaijan denounces Armenia over border attack in violation of ceasefire agreement

Hikmet Hajiyev

By Hikmat Hajiyev

The Armenian armed forces flagrantly violated the ceasefire agreement and used artillery to fire on the positions of Azerbaijan's armed forces in the direction of Tovuz district, along the border between Armenia and Azerbaijan.

Top 10 Stories

Sərhəd Xidmətinin bölmələri yerləşdirilib. Bunun əksinə olaraq, Ermənistan tərəfindən iki ölkənin dövlət sərhədinin hərbiləşdirilməsi və qəsdən mülki insanların hədəfə alınması sistematik şəkildə davam etdirilir.

Məqalədə Ermənistanın bu kimi hərbi avantüra yolu ilə üzv olduğu hərbi-siyasi təşkilatları Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etməyə, Azərbaycana qarşı törətdiyi işğal və təcavüzün məsuliyyətindən boyun qaçırmağa çalışdığı bildirilir. Vurğulanır ki, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın müddətdə davam edən təcavüzü və sərhəddə törətdiyi təxribatlar həm də Ermənistanın üzv olduğu hərbi-siyasi təşkilatın hüquqi sənədlərinə ziddir. Eyni zamanda bu yolla Ermənistan rəhbərliyi yarıtmaz siyasəti nəticəsində COVID-19-un Ermənistanda geniş yayılması ilə daha da kəskinləşən sosial-iqtisadi problemlər fonunda vəziyyəti gərginləşdirmək və ölkədaxili problemlərdən diqqəti yayındırmağa çalışır.

Qeyd olunur ki, Ermənistan BMT Nizamnaməsini və digər beynəlxalq hüquqi öhdəliklərini kobud şəkildə pozaraq Azərbaycana qarşı hərbi təcavüz etməklə Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal edib. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Ermənistan tərəfindən sərhəddə törədilmiş təxribat rəsmi Yerevanın Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə həllində maraqlı olmamasının növbəti sübutudur. Dünya birliyi COVID-19-a qarşı mübarizə apardığı halda Ermənistan tərəfindən bu hücum və təxribat əməli törədilib. Bu hal və Ermənistanın davamlı olaraq atəşkəsi pozması bir daha sübut edir ki, Ermənistanın BMT Baş katibinin COVID-19 ilə əlaqədar qlobal atəşkəs təşəbbüsünü dəstəkləməsi riyakarlıqdan başqa bir şey deyil.

Məqalənin sonunda beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə və sərhəddə törətdiyi təxribat əməllərini kəskin şəkildə qınamağa çağırılıb.

# Daxili İşlər Nazirliyində videokonfrans formatında kollegiya iclası keçirilib



İyulun 21-də Daxili İşlər Nazirliyində (DİN) 2020-ci ilin birinci yarısında cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini sahələrində fəaliyyətin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib. Ölkədəki epidemik vəziyyətlə əlaqədar kollegiya videokonfrans formatında baş tutub.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirəni giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarının və Daxili Qoşunların ötən altı ayda böyük bir iş həcmini yerinə yetirdiyini və müxtəlif istiqamətlərdə müsbət nəticələr əldə etdiyini vurğulayıb. Nazir xidməti fəaliyyətdə innovasiyaların tətbiqi üzrə həyata keçirilən tədbirlərlə “Karantin dövründə buraxılışların qeydiyyatı”, “Mobil Axtarış Portalı”, “Yoxlamaların vahid məlumat reyestri”, “Ezamiyyətlərin qeydiyyatı”, Polis Akademiyasında “Elektron imtahan” informasiya sistemlərinin yaradılaraq istismara verildiyini, eləcə də bir sıra infrastruktur yeniliklərinin həyata keçirildiyini nəzərə çatdırıb.

Daxili İşlər naziri ölkədə tətbiq olunmuş xüsusi karantin rejiminə riayət olunmasına nəzarət tədbirləri çərçivəsində yoluxanların karantinə yerləşdirildiyi 35 şəhər və rayon üzrə 62 xəstəxananın və digər obyektlərin sutkalıq mühafizəsinin davam etdirildiyini bildirib. Həmçinin xüsusi karantin rejiminin tələblərini pozan 195 minədək şəxs haqqında inzibati məsuliyyət tədbirlərinin görüldüyünü, onlardan 788 nəfərin həbs edildiyini, 193 min 560 nəfərin, o cümlədən tibbi maskadan istifadə etmədiklərinə görə 17 min 820 nəfərin cərimələndiyini qeyd edib.

General-polkovnik V.Eyvazov bildirib ki, dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən daxili işlər orqanlarının və Daxili Qoşunların fəaliyyəti həmişə yüksək qiymətləndirilib. O, polisin peşə bayramı ərəfəsində 26 əməkdaşın dövlət mükafatına layiq görüldüyünü, rəhbər vəzifəli üç şəxsə ali xüsusi rütbələr verildiyini məmnunluqla xatırladıb.

Hesabat məruzəsi ilə çıxış edən Daxili İşlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan dövlət qurumları üzrə 13 min 310 cinayətin qeydə alındığını, bu cinayətlərin 94,7 faizinin daxili işlər və prokurorluq orqanları tərəfindən istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olmaqla 87,2 faizinin böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil etdiyini bildirib.

Məruzəçi qeyd edib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə bir çox cinayətin sayında azalma qeydə alınıb. Belə ki, qəsdən adam öldürmələr 6, adam öldürməyə cəhdlər 16,3, qəsdən sağlamlığa az ağır zərər vurmalar 4,2, mülkiyyət əleyhinə olan cinayətlər 4,8, xuliqanlıqlar 27, yetkinlik yaşına çatmayanların cinayətləri 19,6, ailə münaqişəsi zəminində hüquqpozmalar 6,2, odlu silahın tətbiqi ilə baş verən cinayətlər 33,3, ictimai yerlərdə törədilən cinayətlər 21,5, yol-nəqliyyat hadisələri 7,5, qəzalarda ölənlərin sayı 5, xəsarət alanların sayı 6 faiz azalıb. Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 241 cinayətin açılması, axtarışda olan 1821 şəxsin tutulması da məhz hesabat dövründə təmin edilib.

Polis general-leytenantı S.Əzimov mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə 438, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 103 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 86 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, qeyri-leqal dövriyyədən ötən ilin altı ayı ilə müqayisədə 256,5 kiloqram çox və ya bir ton 67 kiloqram narkotik vasitə çıxarıldığını, 91 tona yaxın narkotik xassəli bitkinin aşkarlanaraq məhv edildiyini iclas iştirakçılarının nəzərinə çatdırıb.

Məruzə ətrafında çıxış edən Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov, Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis general-mayoru Teymur Hacıyev, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılov, Bakı Şəhər Baş Polis İdarəsi İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis polkovniki Sərdar Səfərov və digərləri hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən danışıb, fəaliyyətdə yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı planlaşdırılan konkret tədbirlər barədə məruzə ediblər.

İclasa yekun vuran Daxili İşlər naziri Vilayət Eyvazov hesabat dövründə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi polis orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu nəzərə çatdıraraq müşavirə iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına və qarşıda duran vəzifələrə yönəldərək konkret tapşırıq və tövsiyələrini verib. Nazir cinayətkarlığa qarşı mübarizədə, asayişin və daxili təhlükəsizliyin qorunmasında əldə edilmiş müsbət nəticələrin inkişaf etdirilməsini, şəxsi heyətin daha böyük əzmlə çalışmasını və əməkdaşların peşəkarlığının yüksəldilməsini hər bir polis orqanının rəhbərindən tələb edib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqətə, verdiyi böyük dəyərə və etimadına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əminliklə diqqətə çatdırıb ki, respublikada ictimai asayişin mühafizəsi, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə və tam yerinə yetiriləcək.

# Azərbaycanın ABŞ Konqresində əhəmiyyətli uğuru

## ABŞ Konqresində Azərbaycan əleyhinə daşnaklar tərəfindən təşviq olunan qanunvericilik təkliflərinin qarşısı qətiyyətlə alınıb və ilk dəfə Ermənistan əleyhinə düzəlişlər qəbul edilib

Ötən il olduğu kimi, ABŞ-ın erməni qrupları 2021-ci maliyyə ili üzrə “Milli Müdafiə Maliyyələşmə Qanunu” (National Defense Authorization Act - NDAA) layihəsinə Konqresin bəzi ermənipərəst üzvlərinin dəstəyi ilə düzəlişlərin daxil edilməsi istiqamətində səy göstəriblər.

Bu proses çərçivəsində Azərbaycana dəstək verən bir sıra Konqres üzvləri də, öz növbəsində, Ermənistan əleyhinə iki düzəliş irəli sürüblər.

Qeyd edilən düzəlişlərin müzakirəsi məqsədilə iyulun 17-də ABŞ Konqresinin Nümayəndələr Palatasının Qaydalar Haqqında Komitəsinin iclası keçirilib.

Konqres üzvü Stiv Kohen tərəfindən 99 saylı düzəliş, habelə Konqres üzvləri Stiv Şabot və Stiv Kohen tərəfindən birlikdə bir neçə postsovet ölkəsində işğal olunmuş ərazilərdən köçkün düşmüş və o ərazilərdə qətlə yetirilmiş həmin ölkələrin vətəndaşları barədə hesabatın Dövlət katibi tərəfindən Müdafiə katibi ilə əlaqələndirilməklə Konqresə təqdim edilməsi barədə 296 saylı düzəliş Konqresin Nümayəndələr Palatası tərəfindən qəbul olunub.

Bu düzəlişdə işğal olunmuş ərazilərdən köçkün düşmüş və həlak olmuş əhali barədə məlumatların ABŞ Dövlət və Müdafiə departamentləri tərəfindən birgə hesabatın Konqresə təqdim edilməsi nəzərdə tutulur.

Erməni lobbisinin səylərinə baxmayaraq, iclas zamanı Kaliforniya ştatını təmsil edən qatı ermənipərəst Konqres üzvü Brəd Şerman tərəfindən ölkəmiz əleyhinə irəli sürülmüş “Mülki aviasiyaya təhdid olmadığı barədə Prezident tərəfindən Konqresə təminat veriləne qədər ABŞ tərəfindən Azərbaycana müdafiə məhsulları və xidmətlərinin qadağan olunmasına” dair 66 saylı və Kaliforniyanı təmsil edən erməni əsilli Cəki Spiir tərəfindən “333-cü bölmə çərçivəsində xarici təhlükəsizlik qüvvələrinin imkanlarının artırılması proqramı üzrə Azərbaycan və Ermənistan arasında yardımlara dair paritet tətbiq edilməsi” barədə 330 saylı (məlum olduğu kimi, son iki ildə Azərbaycana bu proqram çərçivəsində 110 milyon ABŞ dolları yardım göstərilsə də, Ermənistana yardım ayrılmaması onların ciddi narazılığına səbəb olmuş və bu düzəliş irəli sürülmüşdü) düzəlişlər qəbul edilməyib. Beləliklə, bu uğursuzluq erməni lobbisinin və xüsusilə də Daşnak partiyasını təmsil edən Amerikanın Erməni Milli Komitəsinin (ANCA) ciddi çaşqınlığına və məyusluğuna səbəb olub. Qarşısı alınmış Azərbaycan əleyhinə düzəlişlərlə aşağıdakı internet səhifələrindən tanış olmaq mümkündür: https://amendments-rules.house.gov/amendments/ShermAzerAmend710201219401940.pdf və https://amendments-rules.house.gov/amendments/Speier%20Azerbaijan%20final71320110611611.pdf

Ermənipərəst Konqres üzvlərinin Azərbaycan əleyhinə irəli sürdüyü düzəlişlərə dəstək üçün erməni lobbisinin bütün qüvvələrinin, hətta son dəqiqədə milyonlarla izləyicisi olan erməni əsilli “tanınmış simaların” səfərbər olunmasına baxmayaraq, sözügedən düzəlişlərin qəbul edilməməsi erməni tərəfində ciddi narahatlığa səbəb olub. Ermənilərə bu işdə ermənipərəst mövqeyi ilə seçilən Qaydalar Haqqında Komitənin sədrinin dəstək göstərməməsi də ermənilər arasında əlavə gərginliyə və narazılığa səbəb olub.

ANCA-nın yaydığı məlumatdan da göründüyü kimi (https://anca.org/press-release/u-s-house-passes-pallone-amendment-demanding-greater-oversight-on-u-s-military-aid-to-azerbaijan/), erməni tərəfi Azərbaycan əleyhinə düzəlişlərin keçməməsinə və Ermənistan əleyhinə qəbul olunmuş düzəlişə görə öz məyusluğunu gizlətməyib.

Azərbaycan tərəfinin bu əhəmiyyətli uğuru ilə barışmaq istəməyən və məğlubiyyətini ört-basdır etməyə çalışan ANCA çoxsaylı erməni diasporunun narazılığının qarşısını almaq və vəsait toplamaq fəaliyyətini davam etdirmək məqsədilə həyasızcasına Azərbaycana heç bir aidiyyəti olmayan, Komitədə qəbul edilmiş ümumi mövzuda bir başqa düzəlişi özünün uğuru kimi təqdim etməyə və ictimaiyyəti yanlış məcraya yönəltməyə cəhd edib. Halbuki Frank Palloun tərəfindən irəli sürülmüş və ermənilərin istinad etdiyi “Müdafiə katibinin Dövlət katibi ilə birgə əlaqələndirilməklə 333-cü bölmə çərçivəsində xarici ölkələrin təhlükəsizlik qüvvələrinə yardım göstərilməndən əvvəl və ya yardım göstərilən zaman beynəlxalq səviyyədə tanınmış insan hüquqlarını pozub-pozmadığı barədə Konqresə hesabat təqdim olunması, habelə belə pozuntuların qarşısının alınması məqsədilə təlimlərin keçirilməsinə” dair 396 saylı düzəlişin mətnindən göründüyü kimi (https://amendments-rules.house.gov/amendments/PALLON_039_xml716201347484748.pdf), bu düzəlişdə Azərbaycan barədə heç bir istinad mövcud deyil və düzəliş ABŞ-ın bütün hərbi müttəfiqlərinə və yardım göstərdiyi tərəfdaşlara aiddir.

Konqresdə yaranmış vəziyyətlə əlaqədar erməni lobbisi tərəfindən şişirdilmiş geniş təbliğat kampaniyası ilə yanaşı, təəssüflər olsun ki, bəzi dairələr guya 907-ci düzəliş tipli təkliflərin qəbul olunacağı barədə şayiələr yaymaqla bu məsələdə müəyyən çaşqınlıq yaratmağa cəhd etmişlər. Ümumiyyətlə, erməni tərəfinin dövlətimizə qarşı uydurma təbliğatının əsas məqsədi ABŞ-Azərbaycan münasibətlərinə, Azərbaycan xalqının birliyinə mane olmaq, eləcə də erməni lobbisinin maliyyələşməsinin davam etməsidir. Bu xüsusda erməni lobbisinin və digər dairələrin təxribatlarına uymamaq, olduqca ehtiyatlı yanaşmaq və məlumat mənbələrini dəqiq yoxlamaq vacibdir.

# Sosial-iqtisadi islahatlar Naxçıvanı inkişaf ünvanına çevirib



İyulun 21-də altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyası keçirilib. Sessiyanın gündəliyinə 2020-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları və cari məsələlər daxil edilib.

İclasda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov vurğulayıb ki, 2020-ci ilin birinci yarısında ölkəmizdə və onun muxtar respublikada Ümummilli Lider Heydər Əliyevin yoluna sədaqət əsas inkişaf göstəriciləri üzrə müsbət dinamikanın qorunub saxlanılmasına səbəb olub. Sosial-iqtisadi islahatlar və tikinti-quraşdırma işləri davam etdirilib, qarşıya qoyulan vəzifələrin icrası diqqətdə saxlanılıb. Əhali rifahının yaxşılaşdırılması, xüsusilə insanların sağlamlığının qorunması və pandemiya ilə mübarizə sahəsində ardıcıl tədbirlər görülüb.

Ali Məclisin Sədri qarşıda duran vəzifələrlə bağlı aidiyyatı qurumlara ciddi tapşırıq və göstərişlərini də verib. Qeyd edilib ki, bu ilin ikinci yarısında da muxtar respublikanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə islahatlar davam etdirilməli, makroiqtisadi sabitlik qorunub saxlanılmalıdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında işə tələbkarlıq artırılmalı, nizam-intizama əməl edilməli, qarşıya qoyulmuş vəzifələr vaxtında icra olunmalıdır.

Eyni zamanda Maliyyə Nazirliyi etibarlı maliyyə nəzarəti sistemi formalaşdırmaqla büdcə xərclərinin icrasına nəzarəti gücləndirməlidir. Dövlət Gömrük Komitəsi və Dövlət Vergi Xidməti tədiyə növləri üzrə vergi və rüsumların vaxtında toplanaraq büdcəyə köçürülməsinə nəzarəti artırmalı, dövlət büdcəsinin proqnoz göstəricilərinin icrası təmin edilməlidir.

Qeyd edilib ki, muxtar respublikanın ixrac potensialının artırılması və ixraca dövlət dəstəyinin daha da gücləndirilməsi məqsədilə 2020-ci il "İxrac ili" elan edilib. İqtisadiyyat Nazirliyi ixracyönümlü istehsalın aparılması məqsədilə sahibkarlara güzəştli maliyyə dəstəyinin göstərilməsini, yeni müəssisələrin yaradılması və ixracın təşviqi ilə bağlı tədbirləri davam etdirməli, pandemiya dövründə ixrac bazarlarında baş verən tendensiyalar təhlil edilməli, yeni ixrac bazarlarının əldə olunması istiqamətində iş aparılmalıdır.

Muxtar respublikada aparılan abadlıq-quruculuq tədbirlərinin miqyası da ildən-ilə genişlənir. Ona görə də Dövlət Şəhərsalma və Arxitektura Komitəsi cari ilin ikinci yarısında da ayrılmış vəsaitdən səmərəli və düzgün istifadə etməli, tikinti işlərinin keyfiyyətlə aparılması təmin olunmalıdır.

"Ulu Öndərin yolunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi imkan verəcəkdir ki, Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası 2020-ci ili də bütün sahələrdə uğurlu nailiyyətlərlə başa vursun. Məqsədimiz Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu inkişaf, sabitlik və rifahı daha da möhkəmləndirməkdir"-, deyə Ali Məclisin Sədri vurğulayıb.

Sessiyada Naxçıvan Muxtar Respublikası Baş Nazirinin birinci müavini Elşad Əliyev, İqtisadiyyat naziri Tapdıq Əliyev, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov çıxış edərək ilin birinci yarısında görülən işlərlə bağlı geniş məlumat veriblər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qafqaz Müsəlmanları İdarəsinin sədri "Böhran vəziyyətində dini liderlərin rolu" mövzusunda onlayn tədbirdə iştirak edib

İyulun 21-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə "Böhran vəziyyətində dini liderlərin rolu" mövzusunda virtual Forumda iştirak edib.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ICESCO-nun, "RABİTƏ" Müsəlman Dünyası Liqasının və Müsəlman Cəmiyyətləri Beynəlxalq Şurasının birgə təşkilatçılığı ilə keçirilən onlayn tədbir Çad Prezidenti İdris Debi İtnonun müraciəti ilə başlayıb. Dünyada baş verən münaqişələrdə günahsız insanların qurban olmasından narahatlığını diqqətə çatdıran prezident sülhün bərqərar olmasının ümdə əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayıb. O bildirib ki, insanlar arasında harmoniyanın təminində din xadimlərinin rolu əvəzsizdir və bu baxımdan, tədbirin mövzusu uğurlu seçilib. Mənəviyyat, etik problemlərin gündəmə gətirilməsini yüksək dəyərləndirən Çad Prezidenti tədbirin təşkilatçılarına minnətdarlığını ifadə edib.

Forumun açılışında Misir Ərəb Respublikasının Vəqflər naziri və İslam işləri Ali Şurasının sədri Məhəmməd Muxtar Cümə, İslam Aləmi Liqasının baş katibi Məhəmməd Əbdülkərim Əl-İsa, Əl-Əzhərin şeyxi Əl-İmam Əl-Əkbər Əhməd Ət-Tayyib, Müsəlman Cəmiyyətləri Beynəlxalq Şurasının sədri Əli Rəşid Əl-Nuaymi, ICESCO-nun Baş direktoru Salim Əl-Malik çıxışlar ediblər.

Forumun açılış hissəsində çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə tədbir iştirakçılarına Azərbaycan və ümumən Qafqaz müsəlmanlarının salamlarını yetirib. Bəşəriyyətin XXI əsrdə üzləşdiyi ən təhlükəli təhdidlərdən olan koronavirus pandemiyası şəraitində belə bir forumun keçirilməsinin zəruri olduğunu bildirən QMİ sədri bu qlobal problemin törətdiyi fəsadların həyatımızın bütün sahələri, o cümlədən dini fəaliyyətimiz və mənəvi həyatımızdan da yan keçmədiyini xüsusi vurğulayıb. Şeyxülislam Allahşükür Paşazadə pandemiyanın elan olunduğu ilk gündən başlayaraq, Azərbaycan dövlətinin koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürdüyünü və bu çərçivədə 30-dan çox dövlətə humanitar yardımlar etdiyini forum iştirakçılarının diqqətinə çatdırıb. Bu il mayın 4-də Qoşulmama Hərəkatının sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə bu təşkilatın Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birgəyik!" adlı Zirvə görüşünün keçirildiyini xatırladan QMİ sədri bu gün beynəlxalq gündəmdə Azərbaycanın dövlət başçısının təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılmasının yer aldığını bildirib. QMİ sədri, həmçinin forum iştirakçılarını Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə pandemiya ilə əlaqədar ölkə daxilində və onun xaricində çoxsaylı humanitar yardım və xeyriyyəçilik aksiyalarının keçirilməsi barədə məlumatlandırıb.



Şeyxülislam Allahşükür Paşazadə dini lider olaraq həmişə olduğu kimi, pandemiya dövründə də dinlərarası, ümumbəşəri həmrəyliyə çağırışlarını beynəlxalq müstəvidə dəfələrlə səsləndirdiyini, bu mövqeyi BMT Sivilizasiyalar Alyansının təşəbbüsü ilə keçirilən onlayn məsləhətləşmədə, KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin təşkil etdiyi "Pandemiya dövründə zəifləri qorumaq" mövzusunda videokonfransda, MDB ölkələri din xadimlərinin pandemiya probleminə həsr olunmuş tədbirlərində, eləcə də ICESCO-nun Baş direktoru Salim Əl-Malik ilə keçirdiyi onlayn görüşdə bəyan etdiyini diqqətə çatdırıb. QMİ sədri bildirib ki, indiki çətin dövrdə bəşəri həmrəylik, humanizm nümayiş etdirərək, ehtiyacı olanlara dəstək vermək, insanların imanını möhkəmləndirmək və onların gələcəyə ümidini artırmaq dini liderlərin ümdə vəzifələrindəndir.

Şeyxülislam Allahşükür Paşazadə forum iştirakçılarının diqqətinə çatdırıb ki, pandemiyanın fəsadları şəraitində son günlər bədnam qonşumuz Ermənistan tərəfindən Azərbaycanın bu ölkə ilə sərhəd bölgəsində yeni təxribatlar törədilərək atəşkəs rejimi pozulub, o cümlədən dinc əhali arasında tələfatlarımız olub. QMİ sədri bununla əlaqədar forum tribunasından bir daha dünya ictimaiyyətinə, dini liderlərə və beynəlxalq təşkilatlara müraciət Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə dəstək verməyə çağırıb.

Forum işini sessiyalarla davam etdirib. "COVID-19 böhranı ərəfəsində onun mənfi təsirlərinin aradan qaldırılması istiqamətində dini müəssisələrin ən yaxşı təşəbbüsləri və gördükləri praktiki işlər" mövzusunda birinci akademik sessiyada KAICIID-nin Baş katibi Feysəl Əl-Muəmmər, Üləmalar Ali Şurasının üzvü və Vəcdə (Mərakeş) Üləmaları yerli Şurasının sədri Mustafa Binhəmzə, Beynəlxalq Fiqh Akademiyasının Baş katibi Əbdüssalam Əl-Əbbadi və başqaları məruzə ediblər.

Məruzələrin ümumi mövzusu bundan ibarət olub ki, bütün səmavi dinlərdə əsas mənəvi insan dəyərləri üzrə inanclar mövcuddur, bu da insanlar arasında həqiqi əməkdaşlıq üçün bir təməl rolunu oynayır. Bəşər tarixi boyunca çətinlik və böhranların öhdəsindən gəlmək üçün mənəvi dəyərlər vacib rola malik olub. Müdriklik, yaxşılıq və inanc ətrafında formalaşmış həmrəylik və etik insan dəyərlərinin vahid irsi bu istiqamətdə fəaliyyətə rəvac verib və insan davranışını lazımi istiqamətə yönəldib. Hazırkı COVID-19 böhranında bu həmrəylik vahid etik dəyərlər sistemini formalaşdırmaqda bizə yardımçı olacaqdır.

Forumun bağlanış sessiyasında iştirakçıların yekun müraciətləri dinlənilib, tədbirin yekun bəyannaməsi qəbul edilib.

Bəyannamədə COVID-19 pandemiyasının nəticələrini aradan qaldırmağa yönəlmiş tədbir və təşəbbüslərdən ilham alaraq, özündə xüsusi halları və inklüziv həll yollarını nəzərə alan, böhran və fəlakətlər üzrə qabaqlayıcı və təfərrüatlı praktiki proqramın hazırlanması məqsədilə gələcəyə yönəlik baxış və ideyalar üzərində razılığa gəlmək zərurəti vurğulanaraq bir sıra tövsiyələr yer alıb. Sənəddə inanc hüququ və dinlərə hörmət öhdəliyi, yaşamaq hüququ və sülh yaratmaq öhdəliyi, insan həmrəyliyi və ədalətli dünya iqtisadiyyatının birgə yaradılması öhdəliyi, həm sözdə, həm əməldə tolerantlıq mədəniyyəti göstərilməsi öhdəliyi, hüquq və vəzifələrdə gender bərabərliyi prinsipinə əməl edilməsi öhdəliklərinin zərurəti əksini tapıb.

Tədbirin sonunda iclasa sədrlik edən ICESCO-nun Baş direktoru Salim Əl-Malik QMİ sədri Şeyxülislam Allahşükür Paşazadəyə iştirakına və əhatəli məruzəsinə görə təşəkkürünü bildirib.

# Beynəlxalq ictimaiyyət Ermənistanın təxribatını, yeni ərazilər əldə etmək cəhdini qətiyyətlə pislədi

İyulun 12-də Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətindəki hadisələr Ermənistan tərəfindən törədilmiş hərbi təxribat, terror aktı, gücdən istifadə etmək cəhdidir.

AZƏRTAC xəbər verir ki, bu fikri Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva iyulun 21-də keçirilən mətbuat konfransında deyib.

Leyla Abdullayeva bildirib ki, Ermənistan tərəfindən başladılan bu hərbi təxribatla bağlı beynəlxalq ictimaiyyət də narahatlıq keçirdi. Türk Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, GUAM və digər beynəlxalq təşkilatlar Ermənistanın bu təxribatını qəti şəkildə pisləyən bəyanatlarla çıxış etdilər. Onlar Ermənistanın Azərbaycanın mülki əhalisini atəşə tutmasını qəti şəkildə pislədilər.

XİN rəsmisi vurğulayıb ki, beynəlxalq təşkilatlar Azərbaycanı birmənalı şəkildə dəstəklədilər. Ermənistanın yeni təxribat əməlləri, yeni ərazilər əldə etmək cəhdi beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə pislənildi.

*Əvvəli 1-ci səh.*

# Düşmənə qarşı ən güclü silahımız milli birliyimizdir

Bu həmrəyliyə, milli birliyə xələl gətirmək istəyən antiazərbaycançı qüvvələr, "beşinci kolon" nümayəndələri isə, hər zaman olduğu kimi, iflasa məhkumdurlar. Çünki Azərbaycan xalqı bu məkrli niyyətli insanları yaxşı tanıyır.

Vaxtilə torpaqlarımızın Ermənistan tərəfindən işğal edilməsində "xidməti" olan beləlәri bu gün də məkrli niyyətlərindən əl çəkmirlər. Antiazərbaycançı qüvvələrin buyruq qulları ölkəmizdə xaos, çaşqınlıq yaratmaq üçün istənilən çirkinliyə əl atırlar.

Təəssüflə qeyd etməliyik ki, iyulun 14-ü axşamı paytaxt Bakıda ordumuza dəstək məqsədilə keçirilən yürüşə bir qrup təxribatçı tərəfindən siyasi məzmun verməyə, onu nəzarətdən çıxarmağa, neqativ emosiyaların formalaşdırılmasına edilən cəhdlər də bu çirkin ssenarilərin tərkib hissəsi idi.

Belə ki, Şəhidlər xiyabanının və Milli Məclisin qarşısına toplaşanların arasından bir qrup gecə saatlarında parlamentin inzibati binasına daxil oldu. Milli Məclisin birinci mərtəbəsinə, foyesinə daxil olan təxribatçılar inzibati binada dağıntılar törədib inventara ziyan vurdular. Polis əməkdaşlarının vaxtında müdaxiləsi nəticəsində bu hərəkətin qarşısı alındı və aksiya iştirakçıları parlamentin binasından çıxarıldılar.

Əlbəttə ki, sərhəd zonasında hərbi əməliyyatların hələ də səngiməmdiyi, gərginliyin davam etdiyi bir vaxtda bir qrup şəxsin Bakının küçələrində iğtişaş yaratmaq cəhdləri, sosial şəbəkələrdə yalan informasiyaların yayılması, Milli Məclisin binasına girərək vandallıq törətməsi, polislərə qarşı zor tətbiq olunması vətəndaşlıq mövqeyinə və qanunlara zidd hərəkət, ən əsası isə şəhidlərin xatirəsinə hörmətsizlik idi.

Təbii ki, bu çirkin təxribatın qarşısı qətiyyətlə alındı və xalq növbəti dəfə həmin qüvvələrə öz yerini göstərdi. Ümumiyyətlə isə, baş verənlər göstərdi ki, bəzi siyasi qrupların və şəxslərin Azərbaycanı 1990-cı illərin əvvəllərinə qaytarmaq cəhdləri əbəsdir. Çünki xalq hər zaman belə bədxah niyyətlilərə qarşı sipər olub və hər zaman da belə olacaq.

## Düşmənin və onların daxildəki dəstəkçilərinin sosial şəbəkə təxribatları

Həm ordumuzun növbəti uğurlu döyüş əməliyyatından, həm də Bakıdakı təxribatın qarşısının qətiyyətlə alınmasından sonra Ermənistan və onun işğalçı siyasətinə dəstək verən antimilli qüvvələr, "beşinci kolon"un nümayəndələri başqa təxribata-informasiya cəbhəsində çirkinliklərə əl atırlar. Bu dəfə ermənilər daha fərqli şəkildə informasiya məkanımıza müdaxilə etməyə çalışırlar.

Əlbəttə, sosial şəbəkələrdən səmərəli istifadə müasir dövrdə vacib amillərdən biridir. Ona görə də Azərbaycan üçün lazım olan məqamlarda vacib mesajların yayılmasına nail olmaqda gənclərin rolu danılmazdır. Bu baxımdan gənclərimiz sosial şəbəkələrdə daha fəal və ehtiyatlı olmalıdırlar.

İndi ermənilər sosial şəbəkələrdə hətta azərbaycanlı adı, soyadı ilə yaratdıqları müxtəlif "feyk" profillərlə yaydıqları yalan videomaterialları, şəkilləri, səs yazılarını paylaşmaqla ölkəmizdə çaşqınlıq yaratmağa çalışırlar. Bu cür təxribatlar sosial mediada davam etdirilsə də, vətənpərvər gənclərimiz onlara layiqli cavablar verirlər.

Xüsusi olaraq vurğulamalıyıq ki, hazırda Azərbaycan müharibə şəraitində yaşayan ölkələrdəndir. Ona görə də dövlət sirri olan hərbi əhəmiyyətli məlumatların yayılması yalnız düşməni sevindirə bilər. Çünki Azərbaycanı istəməyən qüvvələr bu məlumatlardan istənilən formada yararlanırlar.

## Bədxahların niyyəti ölkədə çaxnaşma, nifaq salmaqdır

Bu, bir həqiqətdir ki, informasiya istənilən cəmiyyətdə xaos yarada bilər. Bu səbəbdən onun yayılmasında bir sıra məsələlər nəzərə alınmalıdır. Burada əsas məsələ dövlətin və millətin təhlükəsizliyidir. Bəzi mütəxəssislər informasiya müharibəsini "üçüncü dünya müharibəsi" də hesab edirlər.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva iyulun 20-də xalqa müraciətində bu məsələyə xüsusi olaraq toxunaraq qeyd edib ki, yüksək vətənpərvərlik, mübarizlik əhvali-ruhiyyəsi fonunda bu gün bizim hər birimizdən dözümlü, sayıq və təmkinli olmaq tələb olunur. Hər an unutmamalıyıq ki, artıq uzun illərdir yaşadığımız qarşıdurma şəraiti bilavasitə hərbi əməliyyatlar bölgəsini deyil, həm də informasiya məkanını əhatə edir. Sosial şəbəkələr dövründə informasiya müharibələrinin miqyası, onların hadisələrin gedişatına təsiri qarşıdurmanın yaranmasında olduqca mühüm amilə çevrilir: "Müasir informasiya platformaları düşmən qüvvələr, bədxah insanlar, bəzən sadəcə paxıl və qərəzli dairələr tərəfindən "feyk"lərin, saxta, təxribat xarakterli materialların yayılması üçün vicdansızcasına istifadə olunur. Məqsəd çaxnaşma, nifaq salmaq və daxili "cəbhə" yaratmaq, düşkünlük və məğlubiyyət əhvali-ruhiyyəsini artırmaqdır.

Saxta profillərdən və birdəfəlik işlətmə üçün nəzərdə tutulan telefon nömrələrindən tutmuş istifadəçilərin görmə, eşitmə, emosional qavrayışına psixoloji təsir üsullarından istifadəyədək geniş alətlər arsenalı işə düşür. Bir sözlə, insan qəlbinin ən kövrək tellərinə toxunmaq üçün ən çirkin vasitələrə əl atılır. Ermənistanın işğalçılıq siyasətini dəstəkləyən qüvvələr öz məqsədlərini güdərək "müharibədə bütün vasitələr yaxşıdır" prinsipi ilə hərəkət edirlər".

Azərbaycanın internet istifadəçilərinin əksəriyyətinin təxribata uymadığını, yalan və böhtanı ifşa etdiyini, ağı qaradan seçməyi bacardığını və münaqişənin kökləri haqda həqiqətlərdən bəhs etdiyini sevindirici hal kimi dəyərləndirən Birinci vitse-prezident fəallıq göstərən, düzgün danışan, qanun və əxlaq normaları çərçivəsində əsaslandırılmış şəkildə bu fəaliyyət sahəsində ölkəmizin maraqlarını qoruyan hər kəsə təşəkkür edib.

## Vətən xainlərinin son təxribatına haqq qazandırmaq olmaz

Digər təəssüfləndirici məqam isə odur ki, ordumuzun uğurları və buna sevinən vətənpərvər gənclərin aksiyalarını və ümumilikdə, Azərbaycanın getdikcə dünyada nüfuzunun yüksəlməsini istəməyənlər sırasında bu ölkənin suyunu içib, çörəyini yeyən nankorlar da var. Bu insanlar başqa ölkələrdə gizlənərək ordumuzun uğurlu Tovuz əməliyyatına kölgə salmağa çalışdılar. Ermənistan silahlı birləşmələri tərəfindən mövqelərimizin ələ keçirildiyini, mülki əhali arasında çoxsaylı tələfatın olması ilə bağlı yalan dolu "feyk" məlumatlar yaydılar.

Mehriban xanım Əliyevanın söylədiyi kimi, öz Vətəninə nə dərəcədə nifrət etməlisən ki, Azərbaycan Ordusunun düşmən təxribatına layiqincə cavab verdiyi bir vaxtda üçüncü ölkələrdə gizlənərək "darmadağın edilmiş" Azərbaycan mövqeləri, mülki əhali arasında çoxsaylı insan tələfatı haqqında yalanları efirə verəsən, həmvətənlərimizin qəlblərinə təlaş, qorxu və məyusluq yeridəsən? Yaxud əhəmiyyətsiz, həyata keçirilməz siyasi ambisiyalar naminə parçalanma, hərc-mərclik, qarışıqlıq yaratmaq üçün Azərbaycan gənclərinin vətənpərvərlik əhvali-ruhiyyəsindən istifadə etməyə çalışasan?

Bəli, Birinci vitse-prezident haqlı olaraq hesab edir ki, bu hərəkətlərə və belə insanlara haqq qazandırmaq olmaz. Onların öz torpağı naminə canından keçməyə hazır olan milyonlarla azərbaycanlı ilə ümumi heç nəyi yoxdur və ola da bilməz. Tanrı onlara hakimdir, çünki ictimai qınaqdan başqa Allah qarşısında hamı cavabdehdir.

## Müqəddəs mübarizəmizdə güclü və təsirli vasitə

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan güclü dövlətdir, əldə olunmuş təhlükəsizlik, əmin-amanlıq, sabitlik və sosial rifah müstəqillik dövrümüzün ən böyük nailiyyətləridir. Ona görə də hər bir vətənpərvər Azərbaycan gənci xalqımızın əyilməz iradəsi, uzun illərin əziyyəti və zəhməti, şəhidlərimizin qanı bahasına qazandığımız uğurları hər vəchlə qorumalı, inkişaf etdirməli və istənilən pozuculuğa qarşı vətəndaş mövqeyi nümayiş etdirməlidir.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva hesab edir ki, bütün təxribatlara qarşı sayıq olmalı, təxribata uymamalıyıq: "Gəlin hər dəfə yeni paylaşım edərkən, foto yerləşdirərkən və ya şərh yazarkən unutmayaq ki, biz müharibə şəraitində yaşayırıq və qarşı tərəf informasiya məkanında yayımladığımız hər şeydən istifadə edə bilər. Unutmayaq ki, hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında. Unutmayaq ki, bu gün biz bir amalı olan millət, xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə. Qalib gələn isə gücü birlik, ağıl və iradə ilə möhkəmlənən olur".

Bütün bunlar bir daha onu göstərir ki, müharibə təkcə silahların atəş açması, çoxsaylı insan ölümü, qaçqınlar ordusunun yaranması və başqa fəlakətlərin meydana gəlməsi deyil. Bu, həm də qarşı tərəflər arasında xəbər savaşıdır. Bununla tərəflər bir-birinin ərazisində xaos yaratmağa səy göstərir, cəmiyyətləri parçalayır.

Bu səbəbdən də torpaqları işğal altında qalan Azərbaycanın kütləvi informasiya vasitələrinin daha diqqətli olması çox vacib məsələlərdəndir. 145 illik yubileyini qeyd edən Azərbaycan KİV-i dövlətin, millətin, cəmiyyətin təhlükəsizliyi, onun bütövlüyü istiqamətində aparıcı rollardan birinə malikdir. Elə son günlər ordumuzun Tovuz zəfəri ilə bağlı doğru xəbərlərin ölkə ictimaiyyətinə vaxtaşırı çatdırılması da bunu bir daha təsdiq edir. Ölkə KİV-ində istər pandemiya ilə mübarizədə, istərsə də cəbhədə düşmənə qarşı milli birlik, həmrəylik, güclü milli iradənin nümayiş etdirilməsi istiqamətində xəbər və reportajlar yayımlanır, qəzetlərdə həm maarifləndirici, həm də vətənpərvərlik aşılayan məqalələr dərc edilir.

Peşəsindən asılı olmayaraq hər bir şəxs bu barədə xüsusilə məsuliyyətlə davranmalı, nizam-intizama riayət etməli, cəmiyyətimizdəki mövcud təhlükəsizliyi və sabitliyi qoruyub saxlamaq üçün bütün qüvvəsini səfərbər etməlidir.

Mehriban xanım Əliyevanın da xalqa müraciəti bu ibrətamiz fikirlərlə tamamlanır: "Hər kəsi saran birlik, ruh yüksəkliyi nümayiş etdirmək və tarixi həqiqətin təntənəsi, - Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün hər bir addıma hazır olmaq, - bizim müqəddəs mübarizəmizdə güclü və təsirli vasitədir.

Mən doğma Azərbaycanımı və öz müdrik, mərd və mərhəmətli xalqımı hədsiz dərəcədə sevirəm! Bizim işimiz haqq işidir və Tanrı bizimlədir! Uca Tanrı Azərbaycanı qorusun!"

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# *Vaqif DƏRGAHLI:* "Ermənistan silahlı qüvvələri bölmələrinin mövqelərimizi ələ keçirmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb"

İyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq mövqelərimizi ələ keçirmək məqsədilə hücuma keçməyə cəhd göstərib. Düşmən əvvəlcə yüngül atıcı silahlar, sonra isə 60, 82, 120 millimetrlik minaatanlar və daha iriçaplı digər ağır artilleriya qurğularından istifadə etməklə mövqelərimizi və sərhədboyu bir sıra yaşayış məntəqələrimizi - Tovuz rayonunun Ağdam, Əlibəyli, Dondar Quşçu, Vahidli kəndlərini atəşə tutublar.

AZƏRTAC xəbər verir ki, bunu iyulun 21-də keçirilən mətbuat konfransında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, düşmənə qarşı cavab tədbirlərinin görülməsi ilə bağlı komandanlıq tərəfindən bu istiqamətdə yerləşən bölmələrə dərhal əmr verildi. Görülən tədbirlər nəticəsində düşmən hücumunun qarşısı alındı, onun müdafiəsinin ön xəttindəki atəş nöqtələri, müdafiəsinin dərinliyində yerləşən ehtiyatlar, dayaq məntəqələri, artilleriya qurğuları, müxtəlif təyinatlı hərbi obyektlər, döyüş texnikası və yüzədək canlı qüvvəsi məhv edilib. Ermənistan mətbuatı, sosial şəbəkələri və digər açıq mənbələrin monitorinqi, xüsusilə əməliyyat tədbirləri nəticəsində əldə olunan məlumatlar bunu təsdiq edir: "Qeyd edək ki, 2016-cı ilin Aprel döyüşlərində olduğu kimi, bu dəfə də Ermənistanın hərbi-siyasi rəhbərliyi hərbi məlumatların yayılmasına tətbiq edilən qadağanı əsas gətirərək döyüş itkilərini ictimaiyyətdən gizlədib. Bununla belə, erməni tərəfi itkilərinin bir qismini etiraf etməli olub. Yəqin ki, bir müddət sonra həqiqət üzə çıxacaq və onlar itkilərini müxtəlif şəraitdə baş vermiş hadisə kimi göstərərək etiraf etmək məcburiyyətində qalacaqlar".

V.Dərgahlı vurğulayıb ki, əldə olunan məlumata görə, düşmənin itkiləri arasında Suriya və Yaxın Şərqin müxtəlif ölkələrindən olan erməni əsilli döyüşçülərin də olduğu istisna edilmir. Bu kateqoriyadan olan şəxslər Ermənistanda rəsmi qeydiyyata alınmadığı üçün erməni hərbi rəhbərliyinə bu itkiləri gizlətmək daha asandır.

İyulun 12-dən başlayan aktiv döyüş əməliyyatları iyulun 17-si axşam saatlarınadək davam edib. Bu müddətdə Ermənistan silahlı qüvvələri bölmələrinin mövqelərimizi ələ keçirmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb və hər hansı ərazi itkisinə yol verilməyib. Düşmən dövlət sərhədində vəziyyəti daha da gərginləşdirmək üçün iyulun 14-dən 15-nə keçən gecə iriçaplı silahlardan istifadə etməklə Naxçıvan istiqamətində də təxribata əl atıb. Lakin bu istiqamətdə yerləşən Əlahiddə Ümumqoşun Ordunun bölmələri düşmən təxribatına uymayaraq onun döyüş aktivliyinin qarşısını qətiyyətlə alıblar.

"Azərbaycan Ordusu bölmələrinin cavab tədbirlərinin Aprel döyüşlərində olduğu kimi, genişmiqyaslı olmaması ilə bağlı yarana biləcək suala cavab olaraq bildirirəm ki, bu əməliyyat istiqaməti, eyni zamanda, həm də iki ölkə arasında dövlət sərhədi olduğundan bölmələrimiz tərəfindən görülən cavab tədbirləri sadəcə düşmənin tətbiq etdiyi silah növlərinə uyğun, onun atəş nöqtələrinin susdurulması və onun bu istiqamətdə irəliləməsinin qarşısının alınmasına yönəlmişdir. Təbii ki, bu döyüşlərdə bölmələrimizin qarşısında düşmən mövqelərini ələ keçirmək və ya hansısa istiqamətdə irəliləmək kimi məqsəd yox idi. Ali Baş Komandanın qeyd etdiyi kimi, "bizim Ermənistanla Azərbaycanın dövlət sərhədində hər hansı bir hərbi məqsədimiz yoxdur".

Təəssüf ki, düşmən hücumunun qarşısını alarkən döyüşlərdə Azərbaycan Ordusunun 12 hərbi qulluqçusu şəhid olub. Müdafiə Nazirliyinin rəhbərliyi şəhidlərimizin ailələrinə bir daha başsağlığı verir və səbir diləyir.

Qürurverici haldır ki, Ermənistan ordusundakı vəziyyətdən fərqli olaraq, ordumuzun şəhid general və zabitləri tabeliklərində əsgərlərlə bir sırada, ön xətdə düşmənlə döyüşdə olarkən həlak olublar. Döyüşlər zamanı yaralılar da oldu. Hazırda onların müalicəsi hərbi tibb müəssisəsində davam edir. Onların həyatları üçün ciddi təhlükə yoxdur. KİV nümayəndələri yaralılarla görüşmək, müsahibə götürmək məqsədilə müraciət edirlər. Bildiririk ki, karantin rejimi ilə əlaqədar yaralıların ziyarətinə qadağa qoyulub. Bunu nəzərə alaraq tətbiq olunan məhdudiyyəti düzgün qəbul etməyiniz xahiş olunur", - deyə polkovnik bildirib.

Mətbuat xidmətinin rəisi deyib ki, döyüşlər zamanı yaşayış məntəqələri və qeyri-hərbi obyektlərin intensiv atəşə tutulması nəticəsində mülki əhaliyə, dövlət əmlakı və fərdi mülklərə, eləcə də infrastruktur obyektlərinə ziyan dəyməyib.

Hərbi əməliyyatlar gedən vaxtda ölkəmizin minlərlə vətənpərvər oğul və qızlarının, xaricdə yaşayan soydaşlarımızın, ehtiyatda olan hərbi qulluqçuların, müharibə əlillərinin və veteranlarının Müdafiə Nazirliyinə müraciət ünvanlayaraq ordumuza dəstək məqsədilə hərbi xidmətə çağırılmalarını və döyüşlərə qatılmalarını xahiş etdiklərini vurğulayan V.Dərgahlı bildirib: "Bu günədək təkcə Müdafiə Nazirliyinin elektron poçt ünvanına 17 minədək müraciət daxil olub. Müdafiə Nazirliyi xalqımızı, o cümlədən müraciət edən hər bir vətəndaşı həmrəylik göstərərək ordumuza dəstək olduqlarına görə alqışlayır və onlara minnətdarlıq edir. Eyni zamanda vətəndaşlarımızın diqqətinə çatdırıram ki, hərbi xidmətə çağırışla bağlı müraciəti Müdafiə Nazirliyinə deyil, aidiyyəti üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə edə bilərlər".

Xidmət rəisi xüsusi qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Tovuz rayonu istiqamətində döyüşlərdə şəhid olan hərbi qulluqçuların ailələrinin hərtərəfli diqqətlə əhatə olunması və onlara yüksək qayğı göstərilməsi istiqamətində konkret addımlar atılır. Bu günlərdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə nazirliyin bir qrup ali rütbəli zabiti şəhid general-mayor Polad Həşimovun və şəhid polkovnik İlqar Mirzəyevin ailələrini ziyarət ediblər. Hər iki ailəyə Ali Baş Komandan tərəfindən onlar üçün ayrılan mənzillərin sertifikatları təqdim edilib. Bununla yanaşı son döyüşlərdə şəhid olan bütün hərbi qulluqçuların ailələrinin qayğıları öyrənilir və onların həlli istiqamətində də addımlar atılacaq. Eyni zamanda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, Heydər Əliyev Fondu son döyüşlərdə şəhid olan hərbi qulluqçuların ailələrinin qayğılarını nəzarətə götürüb.

Vaqif Dərgahlı hərbi əməliyyatların nəticəsi olaraq bildirib ki, hazırda qoşunların təmas xəttində əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır. Görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı. Düşmənin infrastrukturu, canlı qüvvəsi və hərbi texnikasına vurulan zərbələrin videogörüntülərinin cüzi bir hissəsi tərəfimizdən yayımlandı. Xalqımız əmin olsun ki, Azərbaycanın əsgər və zabitlərinin qanı yerdə qalmadı. Düşmənə sarsıdıcı zərbələr endirildi.

# Milli Kitabxananın Arxiv fondu mətbuatımızın ilk nümunələrinin orijinal nüsxələri ilə zənginləşmişdir

Milli mətbuat günü ərəfəsində Milli Kitabxananın Arxiv fondu "Əkinçi", "İqbal", "Açıq söz", "Həyat","İqdam" və digər ilk dövri mətbuat nümunələrimizin orijinal nüsxələri ilə zənginləşmişdir.

Bu günlərdə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın ötən ildən həyata keçirməyə başladığı birgə layihə çərçivəsində XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda nəşr olunan milli mətbuatımızın ilk nümunələrindən olan "Əkinçi", "İqbal", "Açıq söz", "Həyat", "İqdam", "Yeni İqbal", "Yeni İqdam" və digər ilk dövri mətbuat nəşrlərimizin orijinal nüsxələrinin tam komplektləri Milli Kitabxanamızın Arxiv fonduna daxil olmuşdur.

Uzun müddət Milli Kitabxana bu qəzetlərin Sankt-Peterburq, Moskva, Daşkənd, Aşqabad və digər şəhərlərdəki kitabxanalardan topladığı foto və ksero surətlərini oxucularına təqdim edirdi və həmin qəzetlər əski əlifba (ərəb əlifbası) ilə çap olunduğundan onların surətlərində hərflərin üzərində və altında qoyulan nöqtələr və digər işarələr yaxşı



oxunmadığına görə bir sıra çətinliklər yaranırdı. Artıq bu çətinliklər arxada qalmışdır və Milli Kitabxana əksər ilk milli mətbuat orqanlarımızın orijinal nüsxələrini öz oxucularına çatdırmaq imkanı əldə etmişdir. Hazırda həmin nəşrlərin rəqəmsallaşdırılması prosesinə hazırlıqlar görülür və tezliklə onların elektron nüsxələri də kitabxanamızın saytı vasitəsilə oxucularımıza təqdim olunacaqdır.

Məlumat üçün bildirirəm ki, ötən il Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən "Milli-Mənəvi sərvətlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin dünya milli kitabxanalarında mühafizə olunan 31 nadir əlyazmasının, Nizami Gəncəvinin Azərbaycan elminə məlum olmayan "Xəmsə" nüsxəsinin və Məhəmməd Füzulinin "Divanı"nın rəqəmsal nüsxələrinin Milli Kitabxanamıza gətirilməsi təmin olunmuşdur.

Fürsətdən istifadə edərək bu işdə bizə göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna və Fondun vitse-prezidenti Leyla xanım Əliyevaya kitabxanamızın oxucuları və kollektivi adından təşəkkürümüzü bildirirəm.

***Kərim TAHİROV,***
***Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi, professor***

# ADA Universitetində XIV Bakı Yay Enerji Məktəbinin onlayn açılış mərasimi keçirilib

ADA Universitetinin Xəzər Enerji və Ətraf Mühit Mərkəzinin SOCAR və "BP Azerbaijan" şirkətləri ilə birgə əməkdaşlıq çərçivəsində təşkil etdiyi XIV Bakı Yay Enerji Məktəbinin rəsmi açılış mərasimi keçirilib.

Universitetdən AZƏRTAC-a bildirilib ki, Bakı Yay Enerji Məktəbi Xəzər bölgəsinə xüsusi diqqət yetirməklə enerji və ekologiya məsələlərinin araşdırılması və daha dəqiq tədqiq edilməsi üçün dünyanın tanınmış alimlərini, siyasətçi və mütəxəssislərini bir araya gətirən və ənənəvi olaraq keçirilən ikihəftəlik sertifikat proqramıdır.




COVID-19 pandemiyası ilə əlaqədar olaraq builki proqram iyulun 24-dək onlayn formatda həyata keçiriləcək. Bu il Bakı Yay Enerji Məktəbinə 14 ölkəni təmsil edən 40 iştirakçı seçilib. Proqramda enerji şirkətlərinin kiçik və orta mütəxəssisləri, müxtəlif dövlət qurumlarının, səfirliklərin və beynəlxalq təşkilatların nümayəndələri və dövlət qulluqçuları, habelə enerji və ətraf mühit məsələlərini araşdıran alim, jurnalist və aspirantlar iştirak edirlər.

Proqram çərçivəsində tədris ediləcək mövzular iştirakçıların həm enerji, həm də ətraf mühitlə bağlı biliklərini gücləndirəcək. Bakı Yay Enerji Məktəbinin müəllim və məruzəçiləri akademiya, dövlət və özəl sektorun aparıcı yerli və beynəlxalq ekspertləridirlər.

Proqramı bitirən iştirakçılara ADA Universitetinin rektoru və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti tərəfindən imzalanmış sertifikatlar təqdim olunacaq.

# Ermənistana məxsus iki taktiki PUA məhv edilib

İyulun 21-i Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatları (PUA) vasitəsilə gecə saat 00.30 radələrində cəbhənin Ağdam rayonu istiqamətindəki, səhər saat 08.45 radələrində isə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Hərbi Hava Qüvvələrimizin Hava Hücumundan Müdafiə bölmələri tərəfindən düşmənin hər iki PUA-sı dərhal aşkarlanaraq dəqiq atəşlə məhv edilib.

# Atəşkəs 62 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 62 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Çəmbərək rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# İtaliya və İsveçrədə mafiyanın 75 üzvü tutulub

İtaliyanın Maliyyə Qvardiyası və İsveçrə polisi "Ndranqeta" adlı cinayətkar təşkilata qarşı irimiqyaslı əməliyyat keçirib. Əməliyyat nəticəsində ağır cinayətlər törətməkdə şübhəli bilinən 75 nəfər həbs olunub. Bu barədə "İnterfaks" agentliyi xəbər xerir.

İtaliyanın cənubunda yerləşən Katandzaro əyalətinin Maliyyə Qvardiyası nümayəndəsinin dediyinə görə, həmin cinayət işində 158 nəfərin adı keçir. Tutulan şəxslərə mafiya fəaliyyəti, narkotik vasitələrin qaçaqmalçılığı, cinayət və korrupsiya yolu ilə əldə edilən çirkli pulların yuyulması və digər ağır cinayətlər üzrə ittihamlar irəli sürülüb.

İtaliya Maliyyə Qvardiyasının 700-ə yaxın əməkdaşının cəlb olunduğu əməliyyatın gedişində cinayətkar qruplaşmaya aid 169 milyon avro dəyərində əmlak müsadirə edilib.

# Beynəlxalq aləm

## İraqın yeni Baş naziri İrana ilk xarici səfərə gəlib

İraqın Baş naziri Mustafa Kazımi İrana ilk xarici səfərə gəlmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

İranın energetika naziri Rıza Ərdəkaniyan Tehrandakı "Mehrabad" hava limanında İraq hökumətinin başçısını qarşılayıb.

Səfər çərçivəsində Kazımi İranın ali rəhbəri Əli Xamneyi, Birinci vitse-prezident İshak Cahanqiri , parlamentin spikeri Məhəmməd Bağır Kalibaf, Ali Təhlükəsizlik Şurasının baş katibi Əli Şamxani və başqaları ilə danışıqlar aparacaq.

İraq hökumətinin başçısını İraqın xarici işlər naziri Fuad Hüseyn, neft naziri İhsan Əbdülcabbar, elektrik enerjisi naziri Məcid Mehdi Əli, maliyyə naziri Əli Allavi, müdafiə naziri Cuma İnad, səhiyyə naziri Həsən Təmimi və milli təhlükəsizlik müşaviri Qasım Aracı müşayiət edirlər.

Kazıminin ilk xarici səfəri Səudiyyə Ərəbistanına olmalı idi. Lakin səfər Kral Salman bin Əbdüləzizin xəstəliyi səbəbindən ləğv edilib.

## Rodriqo Duterte maska taxmayanları həbslə hədələdi

Filippin Prezidenti Rodriqo Duterte koronavirusdan qorunmaq üçün tibbi maska taxmayan şəxsləri həbslə hədələyib. Bu barədə "Röyter" agentliyi xəbər verir.

"Pandemiya şəraitində qoruyucu maska taxmayan və təhlükəsiz distansiya saxlamayan şəxslərin həbs olunmasının vacibliyinə şübhəmiz yoxdur. Bu, ciddi cinayətdir. Qoy digərləri onların həbsindən dərs götürsün", - deyə Filippin lideri bildirib.

İnsan hüquqlarının pozulması barədə ittihamlara baxmayaraq ötən həftə ölkənin hakimiyyət orqanları lazım gələrsə, koronavirusun səbəb olduğu yüngül pnevmaniya xəstələrinin zorla xəstəxanalara yerləşdiriləcəyini demişdi. Məmurlar sərt tədbirlərin vacibliyini Filippində infeksiyaya yoluxma və ölüm hallarının kəskin artması ilə izah edirlər.

Filippində indiyə qədər 70 min 784 nəfərin koronavirusa yoluxduğu aşkarlanıb, 1837 nəfər isə həyatını itirib. Ölkə COVID-19 infeksiyası səbəbindən ölənlərin sayına görə Cənub-Şərqi Asiyada İndoneziyadan sonra ikinci yerdədir.

# Prezidentin Basqalla bağlı sərəncamında nəzərdə tutulan işlərin icrası bu yerlərə yeni həyat gətirəcək





İsmayıllı rayonunun Basqal qəsəbəsi Azərbaycanın zəngin tarixə və bənzərsiz təbiətə malik qədim yaşayış məntəqələrindəndir. Prezident İlham Əliyevin "Basqal Dövlət Tarix-Mədəniyyət Qoruğu haqqında" 2018-ci il oktyabrın 3-də imzaladığı sərəncamdan irəli gələn vəzifələrin icrası istiqamətində görülən işlər bu yerlərə yeni həyat gətirməkdədir. AZƏRTAC bildirir ki, sərəncamda qarşıya qoyulan vəzifələrə müvafiq olaraq Basqal-Sulut avtomobil yolu yenidən qurulur. Muğanlı-İsmayıllı magistralının 17-ci kilometrliyindən başlayan yerli əhəmiyyətli yol 10 kəndi, eləcə də Tağlabiyan, Kəlfərəc, Mücü, Zeyvə, Xankəndi və digər yaşayış məntəqələrini birləşdirir. Uzunluğu 31 kilometr, eni 6 metr olacaq yolun yenidən asfaltlanması, körpü və suötürücü kollektorların quraşdırılması nəzərdə tutulur. İlkin olaraq 1,3 kilometrlik Basqal dairəvi yolunun tikintisinə başlanılıb.

Qəsəbənin Qoşabulaq və Dəmirçibazar küçələrinin görünüşünü korlayan qaz xətlərinin boruları yerin altı ilə çəkilir ki, bu da qoruqla əlaqədar layihənin bir hissəsidir. Bundan əlavə, 17,6 hektarlıq ərazidə "Basqal" Ailə Sağlamlıq və İstirahət Kompleksi tikilir.

Qeyd edək ki, dövlət başçısının sərəncamında tarix və mədəniyyət abidələri üzərində bərpa-konservasiya, rekonstruksiya işlərinin aparılması, ənənəvi xalq sənətkarlığı növlərinin dirçəldilməsi, istirahət-turizm infrastrukturu obyektlərinin və xidmət sahələrinin yaradılması da nəzərdə tutulur. Bundan başqa, yeni iş yerlərinin açılması da zəruri məsələ kimi qarşıya qoyulub.

# Karantin rejiminin uzadılmasının məqsədi müsbət dinamikanı qoruyub saxlamaqdır

*Əvvəli 1-ci səh.*

Hələlik isə peyvənd tam hazır olanadək bəzi dünya ölkələri koronavirusun yoluxmasının qarşısını almaq məqsədilə məhdudlaşdırıcı tədbirlər həyata keçirməkdə, xüsusi karantin rejimi tətbiq etməkdə davam edir. İndiki şəraitdə koronavirusun yayılma arealını azaltmaq üçün görülən effektiv tədbirlərdən biri məhz karantin rejiminin tətbiqidir.

Mütəxəssislər də hesab edirlər ki, dünyanın koronavirusla ən uğurlu mübarizə üsulu insanlar arasında təması azaldaraq yoluxma zəncirini qırmaqdır. Ona görə də bəzi ölkələr ilkin mərhələdə sərt karantin rejimi sayəsində virusa yoluxmada nail olunan müsbət dinamikanı yenidən əldə etməyə çalışırlar. Bunu da yumşaldılmanı sərt karantin rejimi ilə əvəzləyərək edirlər.

## Gündəlik koronavirusdan sağalanların sayı yoluxanların sayını üstələyir

Azərbaycan da bu yolu seçən ölkələr sırasındadır. Dünyada olduğu kimi, vətənimizdə də infeksiyaya yoluxma sayını azaltmaq və kütləvi yoluxmanın qarşısını almaq üçün sərt karantin rejimi əvvəl iyulun 20-nə, növbəti dəfə avqustun 5-nə kimi uzadıldı.

Nazirlər Kabineti yanında Operativ Qərargahın son günlər açıqladığı statistika bu qərarın müsbət nəticə verdiyinə dair sübutdur. Artıq koronavirusdan sağalanların sayının artdığını, gündəlik yoluxma hallarının isə azaldığını müşahidə edirik. Sevindirici haldır ki, mənfi tendensiya müsbət dinamika ilə əvəzlənib. Bu da məhdudiyyətlərin tətbiqinin, karantinin sərtləşdirilməsinin düzgün qərar olduğunu deməyə əsas verir. Hazırda əsas şərt əldə olunan bu müsbət dinamikanı qoruyub saxlamaqdır. Sərt karantin rejiminin yenidən uzadılması da elə pandemiyanın təsirinin daha da zəiflədilməsinə, yoluxma zəncirini mümkün olduğu qədər qırmağa hesablanıb. Dövlət tərəfindən qəbul edilən bütün qərarların arxasında məhz əhalinin sağlamlığı, rifahı, təhlükəsizliyinin təminatı dayanır.

Koronavirusla bağlı belə müsbət tendensiya davam etsə, avqustun 5-dən hökumət daha çox sahələrdə fəaliyyəti bərpa edə, yumşalmalara gedə bilər. Bunu Prezidentin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov Nazirlər Kabineti yanında Operativ Qərargahın iyulun 20-də keçirilən brifinqində deyib.

Şahmar Mövsümovun sözlərinə görə, isti havada evdə oturmaq çətin olsa da, bunun müsbət nəticələrini görürük. Ümidvarıq ki, yoluxma sayında azalma tendensiyası davam edəcək. Nə qədər çox müsbət tendensiya olsa, biz növbəti mərhələlərdə daha çox sahələrdə açılışlara gedə bilərik.

Prezidentin köməkçisi hər kəsin qaydalara əməl etməli olduğunun vacibliyini vurğulayıb: "İnsanlar sosial məsafəni qorumalı, maska taxmalı, gigiyenaya diqqət yetirməlidir. Başa düşmək lazımdır ki, koronavirus hələ bizimlədir, əgər qaydalara əməl etməsək, yoluxma sayı yenidən artacaq və hökumət yenidən sərtləşməyə getmək məcburiyyətində qalacaq".

## "Ehtiyacı olan vətəndaşlara dərmanlar çatdırılır"

Hazırda xəstəxanada və ya evdə olmasından asılı olmayaraq, koronavirus infeksiyasına yoluxmuş bütün şəxslərin müalicəsi dövlətin hesabına həyata keçirilir. Bunun üçün ölkədə kifayət qədər dərman ehtiyatı var. Azərbaycan aylardır bütün imkanlarını koronavirusla mübarizəyə yönəldib. COVID-19 pandemiyasının yayılmasının qarşısının alınması üçün Azərbaycanda hökumətin ciddi nəzarəti altında hərtərəfli tədbirlər davam etdirilir. İnfeksiyanın geniş yayılmasının qarşısının alınması istiqamətindəki tədbirlər çərçivəsində Prezident İlham Əliyevin Nazirlər Kabineti yanında Operativ Qərargaha göstərişinə uyğun olaraq yeni növ koronavirus sahəsində çalışan xarici mütəxəssislər Azərbaycana gəlir.

Artıq üç həftəyə yaxındır ki, COVID-19 infeksiyasına yoluxanlar və şübhəli olan xəstələr ev şəraitində ambulator-poliklinik nəzarət altındadır. Hazırda 12 min 862 nəfər ambulator müşahidə altındadır. Onlardan 8 mindən çoxunu laborator testin nəticələri mənfi çıxanlar təşkil edir. Digərləri isə yüngül əlamətləri olan və ya əlamətləri olmayan şəxslərdir.

Bu barədə brifinqdə məlumat verən Səhiyyə Nazirliyinin Aparatının rəhbəri Nadir Zeynalov qeyd edib ki, hər gün ev şəraitində müalicə olunanların bir qismi sağalıb ambulator-poliklinik nəzarətdən çıxır və onlarda xəstəlik olmaması təsdiq edilir.

Nadir Zeynalov hazırda paytaxt üzrə nəzarət-müşahidə altında olan vətəndaşlara ev şəraitində müalicə üçün verilən vitaminlərlə və mikroelementlərdən ibarət preparatlarla bağlı qıtlıq olmadığını deyib: "Bu işə təzə başlayanda müşahidə altında olan vətəndaşların hamısına preparatları eyni zamanda çatdırmaq qeyri-mümkün idi. Ona görə müəyyən ləngimələr qeydə alınırdı. Ancaq indi ləngimə yoxdur və ehtiyacı olan vətəndaşlara dərmanlar çatdırılır".

## "Qaydalara əməl edilsə, pandemiyanın güclənməsinin qarşısını ala bilərik"

N.Zeynalov poliklinikaların nəzdində yaradılmış xüsusi məntəqələrə koronavirusla əlaqədar hər gün 400-500 arası müraciət olduğunu və onların əksəriyyətinin telefon vasitəsilə qeydə alındığını bildirib: "Hazırda müayinə üçün götürülən yaxmaların sayı 6 minə yaxındır. Onların əksəriyyəti ev şəraitində götürülür. Az miqdarını isə birbaşa məntəqələrə müraciət edən vətəndaşlardan götürülən yaxmalar təşkil edir".

Onu da qeyd edək ki, Azərbaycanda koronavirusa yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar ötən müddət ərzində aparılan testlərin sayı 640 minə çatıb.

Səhiyyə Nazirliyinin Aparatının rəhbəri payız aylarında koronavirus pandemiyasının güclənməsi ehtimalına da aydınlıq gətirib. O bunu həmin mövsümdə hava dəyişikliyinin baş verməsi və adi soyuqdəymələrin daha çox qeydə alınması ilə əlaqələndirib: "Ehtimal olunur ki, payız aylarında müxtəlif ölkələrdə karantin tədbirləri yavaş-yavaş yumşalacaq və daha çox insan işə qayıdacaq. Çünki iqtisadi çətinliklər də yaranır. Hazırda ölkəmizdə görülən işlər bir növ gələcəyə hazırlıqdır. Biz ölkəmizdə pandemiyanı nə qədər nəzarət altına ala biləriksə, bir o qədər də payız və qış mövsümləri üçün hazır vəziyyətdə ola bilərik. Burada iş yerlərində sanitar-epidemioloji qaydalara riayət məsələsi də önəmlidir. Həmin qaydalara əməl edilsə, pandemiyanın güclənməsinin qarşısını ala bilərik. Əks halda isə onun güclənməsi mümkündür".

Bəli, koronavirusla mübarizədə dövlətin həyata keçirdiyi tədbirlərə dəstək məqsədilə əsas vəzifə vətəndaşların üzərinə düşür. Vəzifə isə sadədir - karantin qaydalarına əməl etmək, maska taxmaq, sosial məsafəni saxlamaq. Bu sadə qaydalara riayət etməklə ölkədə virusa yoluxma hallarının sayının azalmasına və nəticə olaraq karantin rejiminin bitməsinə səbəb ola bilərik.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Azərbaycanda COVID-19: daha 449 nəfər sağalıb, 352 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 449 nəfər sağalıb, 352 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 13 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 28 min 242 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 19 min 939 nəfər müalicə olunaraq sağalıb, 376 nəfər vəfat edib. Aktiv xəstə sayı 7927 nəfərdir.

Ötən müddət ərzində 641 min 732 test aparılıb. Bugünkü test sayı isə 7034-dür.




## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 2 saylı Bakı DOST mərkəzinin inzibati binasında sanitariya-epidemioloji işlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla), digər zəruri sənədlər 27 iyul 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Almas İldırım, 30 B ünvanında yerləşən ofisinə təqdim olunmalıdır. Zərflər 27 iyul 2020-ci il saat 17:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları 2 saylı Bakı DOST mərkəzinin AZ 1044 Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Almas İldırım, 30 B ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Telefon: 012 525-50-26.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 3 saylı Bakı DOST mərkəzinin inzibati binasında sanitariya-epidemioloji işlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla), digər zəruri sənədlər 27 iyul 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 183 B ünvanında yerləşən ofisinə təqdim olunmalıdır. Zərflər 27 iyul 2020-ci il saat 17:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları 3 saylı Bakı DOST mərkəzinin AZ 1029 Bakı şəhəri, Heydər Əliyev prospekti, ev 183 B ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Telefon: 012 525-50-27.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Aztelekom" MMC tərəfindən 11.06.2020-ci il tarixdə vahid satınalma Portalında "Aztelekom" MMC-nin Bakı şəhəri və bölgələr üzrə xidməti ərazilərində istismarda olan kondisionerlərə texniki xidmət və təmir işlərinin" satın alınması məqsədilə elan olunmuş açıq tender üsulu ilə satınalma prosedurunun davamından iddiaçıların sayı 3-dən az olduğu səbəbindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci bəndinə uyğun olaraq imtina olunmuşdur.

*Tender komissiyası*

## "Bakı Metropoliteni" QSC müxtəlif ölçü və rəngdə kafel, metlax və keramoqranitin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1 "Bakı Metropoliteni" QSC üçün müxtəlif ölçü və rəngdə kafel, metlax və keramoqranitin satın alınması**

**İştirak haqqı - 200 manat**

**Hesabın adı: "BAKI METROPOLITENI" QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **12 avqust 2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **20 avqust 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **21 avqust 2020-ci il saat 15:00-da** açılacaqdır.
İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 29 aprel, 23 may, 10 iyun, 30 iyun və 09 iyul 2020-ci il tarixli saylarında "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə Ceyranbatan Su Təchizatı İdarəsinin havalandırma sistemində və qazanxana binasında təmir işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin qəbulu (tender təklifi və bank təminatı istisna olmaqla) 27 iyul 2020-ci il saat 16:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 06 avqust 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 07avqust 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

*Tender komissiyası*

## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2020-ci ildə Sumqayıt şəhərində yaşayış binalarının fasadlarının boyanması işlərinin satın alınması məqsədilə elektron *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.**

**LOT 1 - Sumqayıt şəhərində yaşayış binalarının fasadlarının boyanması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 450 manatdır.**
**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab № AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y İqtisadi təsnifat 142330**
**VÖEN: 2900054881**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün tələb olunan sənədləri (tender təklifi, tikinti işlərinin qrafiki və tender təklifinin qarantiyası istisna olmaqla) 25 avqust 2020-ci il yerli vaxtla saat 17:00-a qədər, tender təklifi və tender təklifinin qarantiyası möhürlənmiş ikiqat zərfdə 02 sentyabr 2020-ci il yerli vaxtla saat 15:00-a qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **03 sentyabr 2020-ci il saat 15:00-da** Portalda açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən iştirakçısı olduğu bir sıra müəssisələrdə paylarının ədalətli bazar dəyərinin müəyyən olunmasına dair beynəlxalq standartlara və qabaqcıl təcrübəyə uyğun qiymətləndirmə xidmətinin satın alınması ilə əlaqədar keçirilmiş təklif sorğusu prosedurunun qiymətləndirmə yekunları əsasında və tender komissiyasının qərarına əsasən "RSM Azerbaijan" MMC təkliflər sorğusunun qalibi seçilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


# OXUCULARIN NƏZƏRİNƏ
# "AZƏRBAYCAN"

*qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | (012) 440-46-94, (070) 244-17-34 |
| *"Azərpoçt" ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 564-63-45, (050) 214-04-05 |
| *"Kaspi" MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Məlumat Hesablama Mərkəzi *e-tender elan edir*

**LOT - 1. "İnformasiya Sistemlərinin kibertəhdidlərdən qorunması məqsədilə təhlükəsizlik avadanlıqlarının satın alınması"**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tenderdə mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

**İştirak haqqı: LOT 1 üzrə 800 AZN**
**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**H/h: AZ31AZPO91015461200420100045**
**VÖEN: 9900037691**
**Bank: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**VÖEN: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxs(lər)i

Asəf Məmmədov,
Təsərrüfat və təchizat şöbəsinin müdiri
**m.asef@rabita.az**
12 565-14-65

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 13.08.2020-ci il saat 11:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 21.08.2020-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 24.08.2020-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Rüstəm Mahmudova əzizi
**ARZU MƏMMƏDOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Maliyyə naziri Samir Şərifov və nazirliyin kollektivi Bakı Şəhəri üzrə Baş Maliyyə İdarəsinin rəisi Təbriz Həsənova anası
**NABAT XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıtdan Zakir Fərəcov Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə qızı
**NİGAR XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov və kollektivi Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə qızı
**NİGAR XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Bakı Şəhəri üzrə Baş Maliyyə İdarəsinin rəisi Təbriz Həsənova anası
**NABAT BURXAN QIZI HƏSƏNOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə qızı
**NİGAR XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə qızı
**NİGAR XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının Birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə qızı
**NİGAR ABBASZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Bakı Şəhəri üzrə Baş Maliyyə İdarəsinin kollektivi idarənin rəisi Təbriz Həsənova anası
**NABAT XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi Lətifə Məmmədovaya və onun həyat yoldaşı Ələkbər Mirzəyevə əzizləri
**ABDULKƏRİM MİRZƏYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6908
Sifariş 1768
Qiyməti 40 qəpik